Above ground part of species of genus *Polygonum* contain flavonoids (Минаева и др., 1973), phenolcarbonic acids (Hörhammer et al., 1955), organic acid in their leaves, vitamins, flavonoids, carotene, tanning substance (Макаров, Прямкова, 1977) and others. The therapeutic properties of species of genus *Polygonum* include biologically active ingredients - flavonoids, tanning substance, phenolcarbonic acids, catechins, etc. These ingredients have antioxidant, antimutagenic, anticarcinogen and other properties (Новрузов, 2005; Cody V. et al., 1988). Although species *Polygonum* have important medical, nutritional and other useful properties, they are very poorly studied in Azerbaijan. In recent years the discovery of plants that contain antioxidant, antibacterial and other properties is quite urgent task is the science of biology.

We aimed to study the flowers of *Polygonum alpestre* C.A.M of the genus *Polygonum* taking into account its nutritional and medicinal importance.

## MATERIALS AND METHODS

The material of the research is the flowers of the widely spread *Polygonum alpestre* of the Greater Caucasus in Guba. The plant material was collected in 2014 during flourishing phase around the village of Khulif in the Gusar region.

The amount of organic acids, sugar, pectin was determined by methods of A.I.Ermakhov and others (Девятин, 1964), C vitamin – Tilmine (Девятин, 1964), carotenoids - Dorodiyeva (دородиева, 1967) and E.Novruzov (Новрузов, 2005), anthocyans - U.G.Skorikova, A.A.Shaftan (Скорикова, Шафтан, 1968), catechins - V.L.Vilogrova (Вигоров, 1972), flavonoids - V.M.Petrechenko et

al. (Петреченко и др., 2002). The quality composition of sugars was determined by methods of O.A.Pavlinova (Павлинова, 1962), organic acids – S.V.Soldatenkova, T.A.Mazurov (Солдатенков, Мазурова, 1962), anthocyans - L.A.Shamsizade, E.N.Novruzov (Шамсизаде, Новрузов, 1987), carotenoids (Новрузов, 2005), flavonoids (Новрузов, 2004), cathechins- E.N.Novruzov et al. (Новрузов и др., 1983).

## RESULTS AND DISCUSSIONS

The results of the analysis show that the flowers of *Polygonum alpestre* is rich in nutrients and biologically active substances. It has been established that the flower contains 2.3% total sugar, 0.87% organic acids, 1.2% pectin, 9.4% tanning substance, 2.34% flavonoids, 0.58% anthocyan 0.8% free catechine, 2.3 mg carotinoids, 358 mg% vitamin C.

As a result of analysis of organic acid glucose, arabinose, galactose was found in sugar mass, malic and oxalic acid in organic acid mass

After carbohydrates and proteins, organic acids are widely spread in the world of plants, participate in various metabolic processes in the plant organism and the synthesis of a number of substances. There is information about the therapeutic significance of various organic acids in the literature. For example, the malic acid is very important in radiation due to its radioprotective properties.

It is also important for the flowers of *Polygonum alpestre* to store enough pectin in. This substance has antiradic and antitoxic properties and removes the toxic substances in the gastrointestinal tract and radionucleotides which entered the organism in various ways (Беззубов, Хатика, 1961; Беззубов и др., 1960). It has been established that pectin is also involved in stabilization of vitamin C.

One of the ingredients found in the flowers of *Polygonum alpestre* is vitamin C. Vitamin C improves the oxidation and reduction processes in the organism, and in the treatment of scurvy and the activation of vitamin P as antioxidant. Taking into account the fact that the organism needs 50 mg of vitamin C throughout the day, it is possible to compensate for the organism's vitamin C by taking 25 g of flower extract per day. Taking into account the fact that the presence of polyphenols (P vitamins) with hypotensive, vascular enhancer, antiseptic, urine and gallbladder, antioxidant, antiradiant, anticancerogen and other physiologically active agents (P vitamins) with a wide range of treatment and daily human requirement for vitamin P is 100-200 mg, it is advisable to use the flower of the *Polygonum alpestre* for the treatment and prevention of various diseases. Considering that the flowers store substances of P-active vitamins up to 13%, the therapeutic effect of vitamin C when using the flowers will be high.

Substances with P vitamin activity, besides increasing the activity of vitamin C, reduces the blood vessels' permeability, improves elasticity, plays an important role in the removal of cholesterol from the organism and inflammation of bile duct. Flavonoids, tannins, catechins, anthocyan, antioxidant, antiradiant, anticancerogen with vitamin P activity have antimicrobial action. The various therapeutic effects of polygonum species are related to the quantity and quality of these substances.

Most of the substances with vitamin P activity of the flowers of *Polygonum alpestre* belong to tannins (tanning substance). It has been established that tannins were formed from two groups of substances: pyrogallol and pyrocatechin. The pyrocatechin group forms about 60% of tannin. It also indicates that vitamin P activity and antioxidant properties of tannin in the flower is high.

10 phenol substances were found in the total of flavonoid extracted by ethyl acetate using two-direction paper chromatography method (butanol-acetic acid-water 4:1:1 first direction, water - acetic acid 85:15 second direction). 6 components out of them give a characteristic response to flavonoids. Mass of flavonoids were hydrolyzed for 2 hours with 2% sulfuric acid and diethyl ether with aglycon was extracted from hydrolyzate. After totally removal of ether, the residual was dissolved in the alcohol and aglycon composition of flavonoid mass was studied by means of chromategraphy. Two (2) aglycons were found in the system of isopropyl alcohol-acetic acid-water (2:5:5) through one-direction chromatogram. When two-direction chromatography was used (in the second direction, butanol-acetic acid-water 4:1:1), three (3) well-separated aglycons were found in the chromatogram. When substances obtained in chromategraphs are checked in Rf, in normal condition and under UB light and reveleaed with ammonia and 2% $AlCl_3$ solution then it makes possible to determine the aglycons as kaempferol, quercetine, myricetin derivatives.

We also have to point out that in the two-direction chromatograms, mix of quercetine and myricetin is shown as a long spot. From here, we can conclude that the flavonoids found in the mass of flavonoids are derivatives of kaempferol, quercetine and myricetin.

Chromatographic analysis of the mass of anthocyans (butanol - acetic acid - water 4:1:1 and water - acetic acid - chloride acid 82:15:3) showed three anthocyans. The initial anthocyans mass was hydro-

lyzed to determine the anthocyans. Anthocyans mass is solved in methyl alcohol and solid hydrochloric acid was added and heated in a water bath for 20 minutes. Anthocyanidins were extracted from the hydrolyzate by amyl alcohol and snthocyanidin aglycons were determined by means of two-direction chromatography. Based on chromatographic and spectral data, aglycons were identified as cyanide and peonidine. Two of the anthocyans are cyanide and one is delphinidin derivative.

Mass of carotenoid was analyzed by thin-layer chromatography. The analysis was carried out in the Silufol-245 plates (Germany) and in the systems of petroleum ether-acetone (96:4) and petroleum ether-benzol-methanol 60:10:1. Three (3) carotenoids have been found in the chromatogram. The substances in the chromatogram are identified as β-carotene, zeaxanthin, and cryptoxanthin according to the Rf, the color and the absorption zone in the UB spectrum.

Catechin mass after condensing with polyphenol mass extracted with ethyl acetate is settled by means of chloroform. The sediment was dissolved in ethyl alcohol and the composition of catechin was studied by means of paper chromatography. The chromatogram was measured with UV light and 1% vanillin layer was found with solid chloride acid solution.

Three components were detected in the chromatogram. Based on the action of the substances in the chromatogram, the colors with various reagents and the comparison with tea cathechin, catechins were found to be identical with (-)epigallocatechin, (+)gallocatechin, and epigallocatechin gallate.

It is possible to conclude from this that the flowers of *Polygonum alpestre* is rich in biologically active and nutritious substances and can be a source of raw materials to obtain medicine means with antioxidant, antiradical, antibacterial, vitamin P and C activity.

## CONCLUSIONS

1. It is for the first time the chemical composition of the flowers of *Polygonum alpestre* species has been analyzed and determined that its flowers are rich in biological active ingredients - flavonoids, catechin, anthocyan, carotenoids and polyphenols.
2. Chromatographic analysis showed that the mass of flavonoids consist of quercetin, kaempferol, myricetin, the mass of anthocyan- cyanidine, peonidin, the mass of catechin – catechin, epigallocatechin, gallocatechin, and epigallocatechin gallate the mass of carotinoid - β-carotene, zeaxanthin and cryptoxanthin.
3. The amount of polyphenols in flowers shows that it can be used as a source of raw material to get medicine with antioxidant, antiradiant and other biological active properties.

## REFERENCES


**Беззубов А.Э., Васильева О.Г., Хатина А.И.** (1960) Влияние пектина на выделение свинца из организма. *Гигиена и санитария*, **№3:** 32-37.

**Беззубов А.Д., Хатика А.И.** (1961) О применении пектина как профилактического средства при интоксикации строицием. *Гигиена труда и проф. заболеваний*, **№4:** 39-42.

**Вигоров Л.И.** (1972) Определение различных форм катехинов в плодах и ягодах. *Труды IV Всесою. Сем. по БАВ (лечебным) веществам плодов и ягод*. Мичурински, с. 310-322.

**Девятин В.Д.** (1964) Методы химического анализа в производстве витаминов. М.: 360 с.

**Дородиева В.И.** (1967) Идентификация каротиноидов листьев грецкого ореха *Juglans regia* L. методом спектрофотометрия и тонкослойной хроматографии. *Растит. ресурсы,* **3 (вып. 2):** 166-168.

**Ермаков А.И., Арасимович В.В., Ярош Н.И. и др.** (1977) Методы биохимического исследования растений. Л.: Агропромиздат, 430 с.

**Макаров А.А., Прямкова Н.А.** (1977) К изучению танидоносности растений Центральной Якутии. В кн.: *Материалы к изчению лекарственной флоры Якутии*. Якутск, с. 8-39.

**Махлаюк В.П.** (1967) Лекарственные растения в народной медицине. Саратов: 560 с.

Мехтиева Н.П. (2015) Биоразообразие лекарственных растений флоры Азербайджана. Автореф. дис. … докт. биол. наук. Баку, 44 с.

**Минаева В.Г., Кисилева А.В., Волхонская Т.А.** (1973) Некоторые результаты обследования растений Красноярского края на содержание флавоноидов. В кн.: *Перспективные полезные растения флоры Сибири*. Новосибирск, с. 170-178.

**Новрузов Э.Н.** (1998) Антиоксидантные свойства флаовоноидов сафлора. *Матер. V Конф. «Биоантиоксидант»*. М., с. 68-69.

**Новрузов Э.Н.** (2004) Флавоноиды репродуктивных органов некоторых растений флоры Азербайджана. *Изв. НАНА, сер. биол. наук,* **№3-4:** 16-28.

**Новрузов Э.Н.** (2005) Каротиноид содержащие растения флоры Азербайджана. *Изв. НАНА*, **№5-6:** 13-32.

**Новрузов Э.Н., Исмаилов Н.М., Мамедов С.Ш.** (1983) Фенольные соединения листьев *Hippophae rhamnoides* L., произрастающих в

Азербайджанской ССР. *Растит. Ресурсы*, **19(вып. 3):** 354-356.
**Павлинова О.А.** (1962) Количественное определение сахаров в растительном материале с применением хроматографии на бумаге. В кн. *Методика количественной бумажной хроматографии сахаров, органических кислот и аминокислот у растений*. Л.-М., с. 3.
**Петреченко В.М., Сухикина Т.В., Фурса Н.С.** (2002) Спектрофотометрический метод определения содержания флавоноидов в *Euhhobia brevipila* Burm. et Cremli. *Растит. ресурсы*, **38(вып. 2):** 104-109.
**Растительные ресурсы СССР** (1987) Л., с. 34-42.
**Рзазаде Р.Я.** (1952) Род *Polygonит*. Флора Азербайджана. Баку, **т. 3:** 166-180.
**Скорикова Ю.Г., Шафтан Э.А.** (1968) Методика определения антоцианов в плодах и ягодах. *Труды БАЗ-3* (Свердловск), с. 451-458.
**Солдатенков С.В., Мазурова Т.А.** (1962) Анализ органических кислот растений методом ионообменных смол и хроматографии на бумаге. *Методика количеств. бум. хром. Сахаров, органических кислот и аминокислот у растений*. Л.-М., с. 27-43.
**Шамсизаде Л.А., Новрузов Э.Н.** (1987) Антоцианы плодов *Rubus caucasuca*L. *Раст. ресурс.*, **25(вып. 4):** 577-561.
**Cody V., Midleton E., Harborne J.** (1998) Plant flavonoids in biology and medicine. New-York: Aban R.Liss, p. 87-103.
**Hörhammer L., Schern A.** (1955) Über das vorkommen zyklischer Pflanzensäuren bei einigen Polygonaceen und Betulaceen. *Arch. Pharm.*, **Bd. 288/60(№ 10):** 441-447.

## *Polygonum alpestre* Çiçəklərinin Kimyəvi Tərkibinin Tədqiqi

**E.E. Jafarova [1], L.A. Mustafayeva [2]**

*1.Institute of Genetic Resources Azerbaijan NAS*
*2.Institute of BotanyAzerbaijan NAS*

İlk dəfə olaraq *Polygonum alpestre* növünün çiçəklərinin bioloji fəal və qidalı maddələrinin miqdarı və keyfiyyət tərkibi tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, çiçəyin tərkibində 2,3% ümumi şəkər, 0,87% üzvi turşu, 1,2% pektin, 9,4% aşı maddəsi, 2,34% flavonoid, 0,58% antosian, 0,8% katexin, 2,3 mq% karotinoid, 358 mq% C vitaminin saxlayır. Şəkər cəmində qlükoza, arabinoza, qalaktoza, üzvi turşu cəmində alma və quzuqulağı turşusu, flavonoid cəmində kversetin, kempferol, mirisetin törəmələri, antosianlar sianidin və delfinidin törəmələri, karotinoidlər - β-karotin, zeaksantin, kriptoksantin, katexinlər – epiqallokatexin, qallokatexin, epiqallokatexinqallat aşkar edilmişdir. Müəyyən edilmişdir ki, Dağ qırxbuğumu çiçəklərindən dərman vasitəsi almaq üçün xammal mənbəyi kimi istifadə edilə bilər.

***Açar sözlər*:** *Polygonum alpestre, çiçək, flavonoid, antosian, karotinoid, katexin, şəkər, üzvi turşu*

## Исследование Химического Состава Цветков *Polygonum alpestre*

**Э.Э. Джафарова[1], Л.А. Мустафаева[2]**

*[1] Институт ботаники НАН Азербайджана*
*[2]Институт генетических ресурсов НАН Азербайджана*

Впервые исследован качественный состав и количественное содержание биологически активных и питательных веществ цветков *Polygonum alpestre*. Установлено что, цветки содержат 2.3% общего сахара, 0.87% органических кислот, 1.2% пектин, 9.4% дубильные вещества, 2.34% флавоноид, 0.58% антоциан, 0.8% катехин, 2.3 мг % каротиноид, 358 мг % витамина С. В составе сахаров обнаружено наличие глюкозы, арабинозы, галактозы, из органических кислот яблочная и щавелевая кислоты, флавоноидов – производные кверцетина, кемпферола, мирицетина, антоцианы – производные цианидинаи пеонидин, каротиноидов - β-каротин, зеаксантин, криптоксантин, катехинов – эпигаллокатехин, галлокатехин, эпигаллокатехингаллат. Выявлено, что цветки горца горного можно использовать как сырье для получения лекарственного средства.

***Ключевые слова:*** *Polygonит alpestre, цветки, флавоноид, антоциан, каротиноид, катехин, сахар, органическая кислота*

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 71, №3, səh. 49-58 (2016)

# *Nonea* Medik Cinsinin Azərbaycan Florasında Yayılan Növlərinin Sistematik İcmalı

**V.N. Kərimov*, V.M. Əli-zadə**

*AMEA Botanika İnstitutu, Badamdar şossesi, 40, Bakı AZ1004, Azərbaycan;*
**E-mail:vuqarkerimov@mail.ru*

**Məqalədə *None*a Medik cinsinə aid növlərin kritik analizi aparılmış, cinsin sistematik strukturu və təyin olunması üçün yeni açar tərtib olunmuş və cinsə aid növlərin qısa təsvirləri verilmişdir.. Çoxcildli "Флора Азербайджана" əsərinndə (Кадыров, 1957) Göyzəbankimilər (*Boraginaceae* Juss.) fəsiləsindən olan *Nonea* Medik cinsinin floramızda yayılan 11 növünün, Aydın Əsgərovun müəllifi olduğu "Azərbaycan florasının konspekti" əsəində isə 14 növünün təsviri verilmişdir ki, biz cinsə aid iki növün elm üçün yeni təsvirini verməklə və daha bir neçə növün floramız üçün yeni olduğunu müəyyənləşdirməklə, bu sayı 18 növə qədər artırmışıq.**

***Açar sözlər:*** *Boraginaceae* Juss. *fəsiləsi, None cinsi, takson, seksiya, diaqnostik əlamət, yeni növlər*

## GİRİŞ

Türkiyə floralarında və müvafiq atlaslarda bu cinsə türkcə Keçəotu adı verilir ki, bu da həmin cinsə aid növlərin orqanlarının sərt keşə tüklərlə örtülü olmasıyla izah olunur. Biz də bu adın bitkinin xarakterinə uyğunluğunu nəzərə alaraq öz əsərimizdə cinsi məhz Keçəotu kimi adlandırmağa qərar vermişik. *Anchusa* cinsinə yaxındır və ondan tacın büküyünun qısa olması və yuxarısından nisbətən az bölümlü olması ilə fərqlənir. Əasən Aralıq dənizi ölkələrində (Şimali Afrika, Qərbi Asiya) və Avropada yayılan 30 növü vardır.

Qeyd: *Nonea* Medik cinsin adı 18-ci əsrdə yaşamış "Erfrut" həkim və botaniki J.P.Nonne-nin şərəfinə verilmişdir. Azərbaycan florasında bu cinsin adı elə azərnbaycan dilində də Nonneya kimi göstərilmişdir

Cinsin növlərinin təyinində və onların seksiyalara ayrılmasında senobinin (fındıqca meyvənin) forması, ölçüləri, rəngi, perikarpinin əlamətləri, eremin vertical, əyilmiş yaxud tam horizontal vəziyyətdə oıması, çılpaq yaxud xırda tükücüklü olması, sikatriksə birləşmə həlqəsinin vəziyyəti (əsasından, yandan birləşməsi), qalınlığı, səthinin əlamətləri əsas götürülür.

M.Q.Popov (1953), D.Dobraçayeva (1981) bu əlamətlər əsasında Şərqi Avropa və Qafqaz noneyalarını 3 seksiyaya ayırmışdır. F.Selvi (2002) cinsin genetik və kladistik analizinə aid məqaləsində, eləcə də M.Pakravan (2009) İran florası noneyalarının sistematikası məqaləsində bu əlamətlərdən istifadə etmişlər.

**Cins - *Nonea* Medik** Phil.Bot.1, 1789.31. **Keçəotu.**

Çiçəkləri sadə yarpaqlı qıvrımları, qısa saplaqlarda yerləşmişlər. Saplaqlar çiçəkləmə dövründən sonra aşağıya doğru əyilirlər. Kasacıqları boruluzınqırovşəkilli, demək olar ki, yarıya qədər bölümlü və meyvə ətrfında şişkinləşəndir. Tacları qıfşəkilli, tünd-qonur, qırmızı və yaxud sarı olub, ləçəkləri boru uzunluqda, 5 yumşaq tüklü çıxıntıya malikdir. Erkəkciklər uzun tozcuqlu, dişicik nazik sütuncuqlu və iki paylı ağızcıqlı olub, tac borusundan kənara cıxmırlar. Meyvələri düz və ya əyri olub, torvari qırışlı, halqavarı, qat-qat bölümlü olan sikatriksə malik olub, ağ əlavəyə malikdir. Çiçək yatağı hamar (yastı), nəlbəkivari çökəklidir. Cod tüklərlə örtülü, bütövkənarlı yarpaqlara malik ot bitkiləridir.

Lektotip: *N.pulla* (L.) DC. (=*Lycopsis pulla* L.).

Dünyada 30-35, Qafqazda ~20, Azərbaycanda 18 növü yayılmışdır.

## MATERİAL VƏ METODLAR

Məqalənin nəşrində Rusiya EA Botanika İnstitutu (LE), Tbilisi Herbariumu (TİB) və AMEA Botanika İnstitutunun Herbariumlarında (BAK) saxlanılan materiallar təhlil edilmiş, ədəbiyyat və internet resurslarından, müxtəlif xəritələrdən, müəlliflərin təbiətdə apardığı monitorinqlərin nəticələrindən və toplanılan herbari materiallarından istifadə olunmuşdur. İşdə müqayisəli morfoloji, sistematik, botaniki, florogenetik və digər metodlardan istifadə olunmuşdur. Məqalənin yazılışında Флора СССР-1953, Флора Кавказа-1967, Флора Азербайджана-1957, Флора Грузии- 1985, Flora of Turkey-1978., Flora İranica-1967 və s. flora və konspektlər aparılan müqayisəli analizin əsas mənbələri kimi istifadə olunmaqla, A.A. Qrossheymin (1936, 1948). S.K. Çerepanovun (1995), A.M. Əsgərovun (2011, 2015), A.R.Murtazaliyevin (2009), V.N. Kərimovun (1999, 2000, 2013, 2014, 2016), və digər alimlərin əsərlərinə istinadlar edilmişdir.

## NƏTİCƏLƏR

Çoxcildli " Флора Азербайджана" əsərinndə (Кадыров 1957) Göyzəbankimilər (*Boraginaceae* Juss.) fəsiləsindən olan *Nonea* Medik cinsinin floramızda yayılan 11 növünün, Aydın Əsgərovun müəllifi olduğu "Azərbaycan florasının konspekti" əsərində isə 14 növünün təsvirləri verilir. Tərəfimizdən 2005-ci ildən başlanılmış elmi tədqiqat işləri nəticəsində *Nonea* Medik cinsinin taksonomik tərkibi kritik təftiş edilmiş və nəticə olaraq cinsin Azərbaycan nümayəndələrinin sayının 18 növ olduğu müəyyənləşdirilmişdir.

Aşağıdakı *Nonea* Medik cinsinin taksonomik strukturu və Azərbaycan Florasında rast gəlinən 18 növün tərəfimizdən tərtib olunmuş təyinedici açarı təqdim olunur.

**Növlərinin təyinedici cədvəli:**

1.Eremləri əyilmiş vəziyyətdədir, sikatriksə birləşmə həlqəsi nazikdir; tacı xırdadır, ağ rənğlidir........ ......................................................18. *N.ventricosa*.
+Eremləri böyrəkvari, əyilməyəndir ...................... 2
2.Birillik, az hallarda ikiillk bitkilərdir................... 3
+Çoxillik bitkilərdirlər......................................... 10
3.Tacı sarı rəngdədir ............................................. 4
+Tacı qırmızı yaxud bənövşəyi rənglidir ............... 6
4. Tacın və onun borusu iridir, kasacıqdan kənara çıxır, büküyü enlizəngşəkilir, 10-15 mm uzunluqdadır .....................................................3. *N.setosa*.
+Tacın və onun borusu xırdadır, kasacıqdan kənara çıxmır, büküyü zəif inkişaf etmiş, nisbətən kiçik ölçülüdür .............................................................. 5.
5.Çiçəkaltı yarpaqları uzunsov-ovalşəkilli, iridir; qıvrım çiçək qrupu uzundur, dağınıq və seyrəkdirdır ............................................2. *N.lutea*.
+Çiçəkaltı yarpaqları lansetşəkillidir, qıvrım çiçək qrupu qısadır, sıxdır ........................ 4. *N.flavescens*.
6. Ətraf mühit amillərindən asılı olaraq özlərini birillik, ikillik bəzən də çoxillik otlar kimi aparan bitkilərdir ............................................................. 7.
+ Xarakterik birilliklərdir .................................... 8.
7.Kasacığın dişcikləri onun boru hissəsinə bərabərdir. Eremləri əsasında hamar həlqəyə malikdir. Aran və aşağı dağ qurşağı bitkiləridir .....5. *N.rosea*.
+Kasacığın dişcikləri onun boru hissəsindən 3 dəfə qısa, üçbucaqşəkilli; eremləri əsasında qırışıqlı həlqəyə malıkdir. Subalp qurşağı bitkiləridir .......... ........................................................ 6.*N.versicolor*.
7. Eremin həlqəsi çox yastı, tünd qabarcıqlı və çox sıxdişlid .....................................8. *N.melanocarpa*.
+Eremin həlqəsi daha hündür, və daha iri dişciklidir ............................................................................. 8.
8. Tacı iri ölçülü, ağız hissədən 5-6 mm diametrində, rəngi əlvan çəhrayı rəngdən bənövşəyi, bəzən də göy rəngə qədər dəyişəndir Senobiləri yuxarıdan yan tərəfə yönəlmişdir........................11. *N.diffusa*.
+ Tacı daha kiçik ölçülü, ağız hissədən 2-4 mm diametrində, tünd qırmızı rəngdən bənövşəyi rəngə qədər dəyişəndir .........................9.
9. Kasacığın uzunluğu 7-10 mm-dir, dişcikləri daha nazik şişucludur, çiçək tacı tünd bənövşəyidir, yarpaqları kənarlardan .................. 10. *N.bakuensis*.
+ Kasacığın uzunluğu 9-12 mm-dir, yarıyadək üçbucaqlı-lansetli, uzun-şişuclu dişciklərə kəsiklidir, çiçək tacı bənövşəyi-qırmızıdır, yarpaqları kənarı boyu uzun kirpikciklid .......................9. *N.caspica*.
10.(2). Tacın rəngi sarıdır; Kasacıq ağımtıl tükcüklərlə sıx örtülmüsdür ........................ 1. *N.alpestris*.
+Tacın rəngi sarı deyildir ...................................11
11.Eremləri iri ölçülü, 6-8 mm uzunluğundadır....12
+Eremləri kiçik ölçülü, 3-4 mm uzunluğundadır.13
12. Sıx qıllı tükücüklüdür; gövdə yarpaqları aşağıya doğru əyilməyəndir ............17. *N.daghestanica*.
+Yumşaq tükcüklüdür, qıllı yarpaqları aşağıya doğru əyilmir ...............................16. *N.decurrens*.
13. Aşağı dağ qurşağının kserofit meyilli, kiçik ölçülü taca malik, qısa dişcikləri olan kiçik kasacıqlı, ot bitkisidir. Çiçəkyanı yarpaqları dar xıtvari və azsaylıdır .....................................................14.
+Yüksək dağ qurşağının mezofit meyilli, iri ölçülü taca malik, nisbətən uzun dişcikləri olan iri kasacıqlı, ot bitkisidir. Çiçəkyanı yarpaqları enli lansetşəkilli və çoxsaylıdır .........................................16.
14. Tacları nisbətən iri olub, 1/3 hissəsi ilə kasacıqdan çölə çıxandır ............................. 13. *N.persica*.
+Tacları çox xırda olub, adətən kasacıqdan çölə çıxmır ...............................................................15.
15. Kasacıqları ¼ hissəsinə qədər bölümlü, çiçək yatağı seyrəkdir ..........................14. *N. armeniaca*.
+Kasacıqları yarıya qədər bölümlü, iti dişciklidir. Çiçək yatağı topadır ..................15. *N.lenkoranica*.
16. Tacları 12-15mm diametrində ağıza malik bənövşəyi rənglidir. Kasacıqları yarıya qədər bölümlü və boz rəngli tükcüklərlə örtülüdür.......................... ....................................................12. *N.intermedia*.
+Tacları 10-12 mm diametrində ağıza malik tünd bənövşəyi və yaxud qonur rənglidir. Kasacıqları ¼ hissəyə qədər bölümlü və mavi tükcüklərlə örtülüdür .....................................11. *N.cyanocalix*.

**Seksiya 1. *Orthocaryum* DC.; Cərgə I., *Alpestris* M.Pop.**

**1. *N. alpestris* (Stev.) G. Don**.f.1838, Çen Syst. 4:336; М.Г.Попов 1953, Фл. СССР 19:320; Кадыров 1957, Фл. Азерб. 7:175; Гроссг. 1967, Фл. Кавк. 2, 7:271. - Alp k.

Çoxillik və ya ikiillikdir. Kökü qalın deyil, əgər çoxillikdirsə onda bir neçə gövdəsi olur; sütuncuğu yüksələn və ya düzdür, hündürlüyü 15-30 (60) sm-dir, qalın, bir az kənarlı, aşağıdan seyrək və yumşaq tüklü-tükcüklüdür, yuxarıdan sıx vəzli və nazik tükcüklü-yumşaq tüklü və azsaylı uzun düz aralı qıllıdır; yarpaqlar ya ensiz, ya da enli, lansetşəkillidirlər, aşağıdakılar kürəkşəkilli-

lansetşəkilli, uzun və get-gedə xırda-dişcikli və kiprikli, itidir. Qıvrımlar gövdənin təpə hissəsində sipərşəkilli çiçəkqrupuna yığılaraq 2-5 (7) saydadır, çiçəklənmə zamanı sıx, meyvə yetişdikdə isə düz, üçhissəli olaraq uzunluğu 5-10 sm-dir, çiçəkyanı yarpaqlar lansetşəkilli iti sallanmış olaraq çiçəklərdən böyük deyil; kasacıq demək olar ki, oturaqdır, yalnız aşağıdakılar qısa aralı yumşaq tüklü çiçək saplağının üzərindədir ki, onun da meyvələri yumurtaşəkilli və ya enli borucuqlu- yumurtaşəkilli olaraq dişcikləri ilə dartılmamışdır, dişcikləri isə qısa, üçkünc, uzunluğu 1-2 mm, ümumilikdə isə 6-8 mm-dir (nadir hallarda 10 mm olur), sıx vəzli-yumşaq tüklü-tükcüklüdür və damar boyunca tək-tək qılları var; kasacığn uzunluğu çiçəklənmə zamanı 4-5 mm-dir; çiçək tacı açıq sarı, əsnəkdə daha tünd sarı, kifayət qədər iridir; borucuğu bir az kasacıqdan uzundur, təxminən 7 mm-dir; qatlağı uzununa görə borucuğa bərabərdir, enli zəngşəkilli, kifayət qədər enli açıq, diametri 8-10 mm-dir; hissələrin uzunluğu 2 mm, enli, yarımdairəvidir; birləşmə yeri kiçik, yumurtaşəkilli, təpə hissədə əmzikşəkilli, kənarlardan seyrək uzun tükcüklüdür; tozcuqların uzunluğu 1,5 mm-dir; fındıqçaların hündürlüyü 3,5 mm-dir, bir az əyilmiş, çapılmış, qövsvari arxa hissəli və düz, lakin çəpəki keçən iti qarın kili var ki, onun da təpə hissəsi çəpəki yuxarı və yan tərəfə istiqamətlənmişdir, torşəkilli iti damarları – çatları var ki, onların da araları hamar, çılpaq, açıqdır; halqası bazal, yumru, xricdən qalınlaşmış və bir az yumşaq tüklüdür. VII-V; VII-VII.

Ola bilsin ki, daşlı yamaclar və töküntü yerlərdə. təsvir edilmişdir.

Azərbaycandan, Şah-Dağdan təsvir olunub. Şərqi Qafqaz areal tipinə malik Azərbaycanın subendem bitkisidir.

**Seksiya 1. *Orthocaryum* DC.; Cərgə II. *Luthea* M.Pop.**

**2. *N.lutea* (Desr.) DC.** in Lam.et DC.Fb. F-r.III, 6. (1805), 626; М.Попов 1953, Фл. СССР 19:321; Кадыров 1957, Фл. Азерб. 7:176; Гроссг. 1967 Фл. Кавк. 7:271; Добрачаева 1981, Фл. Евр. ч. СССР 5:153; Sarı k.

Birillikdir. Gövdəsinin hündürlüyü 20-30 sm-dir, adətən qaidədən budaqlanan, hərdən sadədir; budaqlanırsa aşağı budaqları uzunsov, aralı vəzli-yumşaq tüklü və seyrək qıllıdır, yarpaqları lansetşəkilli-uzunsov, itiucludur, aşağıdakılar qaidəyə doğru get-gedə ensizləşən, yuxarıdakılar isə oturaq, kifayət qədər uzun və 10 mm-dən az olmayaraq enli, yaşılımtıl, yuxarı səthi üzrə kənarları və damarları boyunca aşağıdan qıllıdır; çiçəkaltı yarpaqlar uzunsov, daha uzun itiucludur. Çiçək salxımları yarpaqlı, qısadır, gövdə və budaqların təpə hissəsində bir və ya bir neçə sayda yerləşir, meyvə verənlər çox uzunsovdur, kasacıqları aralıdır; kasacığın uzunluğu çiçəklənmə zamanı təxminən 10 mm-dir, sonradan tez böyüyərək meyvə yetişdikdə 20 mm-dək uzanır, bu zaman yumurtaşəkilli-uzunsov olaraq demək olar ki, yarıya qədər lansetşəkilli, uzun iti dişciklərə kəsilmiş olur, sıx olmayan, hərdən vəzli-yumşaq tüklü və damarları boyunca az sayda bərk aralı qıllıdır; çiçək tacı solğun-sarı, uzunluğu təxminən 10 mm-dir, demək olar ki, borucuqlu, diametri 5 mm-dən böyük olmayan kiçik qatlaqlı olaraq yumurtaşəkilli, küt, bərabər olmayan payları var; fındıqçaların hündürlüyü 5-6 mm, uzunsov-silindrik, düz, hamar, qəhvəyi (yetişəndə qara?), uzunsov qırışlıdır, təpə hissəsi qısa küt, qarıncıq boyu bir az killidir; birləşmə halqası alçaq, qalın, hamardır. Eremləri 5-6 mm uzunluqda, düz, seyrək xətli, qırışlı, qəhvəyi rəngli, kütuclu və hamar halqa əmələ gətirən sikatriksə malikdirlər. IV-V; V-VI.

Balkan yarımadasından (Dalmastiya-hazırki Xorvatiya ərazisi) təsvir olunub və tipi Parisdə saxlanılır.

**3. *N.setosa* (Lehm.) Roem. et Schult.** Syst. IV (1819) 754; М.Попов 1953, Фл. СССР 19:323; Кадыров 1957, Фл. Азерб. 7:177; Гроссг. 1967 Фл. Кавк. 7:271 - Tükcüklü k.

Birillikdir. Çox vaxt qış əvvəli bitkidir, onda kökyanı yarpaqların rozetləri kifayət qədər iri olur; sütuncuq zəif növlərdə təkdir, lakin qüvvətli nümunələrdə bitki çoxgövdəlidir, bu zaman gövdələri qaidədən yüksələn və hətta uzanıqlı da olur; bitkinin hamısı qısa, yumşaq vəzli yumşaq tüklərin üzərində yerləşən uzun aralı qılları ilə xarakterikdir; əsasən də bitkinin qabaq hissəsində və kasacıqda, həmçinin gövdə və yuxarı yarpaqların üzərində tükcüklər çox olur; sütuncuğun hündürlüyü 10-30 sm-dir, yumşaq tüklü və uzun qıllıdır, əsasən də yuxarı yarısında; yarpaqlar kənarları boyunca çox qıllı və kiprikli, demək olar ki, paralel kənarlı lansetşəkilli, kənarları boyunca xırda dişcikli, itiuclu, çox enli olmayan, təxminən 5-8(10) mm, uzunluğu isə 2-4 sm, qüvvətli fərd-lərdə daha enli, uzunsov-lansetşəkilli, aşağıdakılar və əsasən də rozetlilər qaidəyə doğru enli saplaq şəklində dartılaraq kütdür, orta və yuxarıdakılar oturaq və itiucludur; kökyanı yarpaqlar hərdən kürəkşəkilli-uzunsovdur. Qıvrımlar azçiçəklidir, əvvəlcə sıx, qısa olur, sonra isə tez boşalaraq azçiçəkli olduğuna görə qısa - 2-5 sm olur; aşağı-dakı çiçəkaltlığı üçkünc-lansetşəkilli, yuxarıdakılar lansetşəkilli olaraq çox itiucludur; kasacıq qısa ayaqcıqların üzərində olaraq çəpəki yuxarı durur və ya üfüqidir, çiçəklənmə zamanı uzunluğu 10 mm, borucuqludur, meyvə yetişdikdə isə silindrik-kisəşəkilli, uzunluğu 12 mm-dək olur; dişcikləri üçkünc-lansetşəkilli, kasacığın bölünməmiş hissəsindən iki dəfə qısadır; xırda vəzli yumşaq tüklərlə tüklənmiş və damarları boyunca 2 mm-dək

uzunluğu olan uzun və sıx duran parlaq qılları var; çiçək tacı iridir, borucuğu kasacıqdan bir az uzundur; qatlağın uzunluğu borucuğun uzunluğuna bərabərdir (6-8 mm) və çox enli zəngşəkilli olaraq diametri 10-15 mm-dir; eremlərin hündürlüyü 3,5 mm, düz, nazik yumşaq tüklü, çox zəif inkişaf etmiş qırışlıdır. IV-V; V (VI).

Qafqazdan təsvir olunub (LE).

**4.** ***N. flavescens*** **(C.A.Mey.) Fisch.et Mey.** Ind. Sem. Hort. Petrop. II (1835) 17; М.Попов 1953, Фл. СССР 19:323; Кадыров 1957, Фл. Азерб. 7:177; Гроссг. 1967 Фл. Кавк. 7:271; Добрачаева 1981, Фл. Евр. ч. СССР 5:15?; Мцхветадзе 1985, Фл. Грузии 10:255 - Saralan k.

Birillikdir. Adətən alçaqboylu bitkidir, hündürlüyü 7-12 sm, hərdən 20 sm-dək olur, bir və ya bir neçə gövdəlidir; tüklənməsi xırda vəzli yumşaq tüklərə və kifayət qədər çoxsaylı aralı qıllara görə kifayət qədər sıxdır; yarpaqları kənarları boyunca xırdadişcikli, küt, demək olar ki, paralel kənarlı, uzunsovdan demək olar ki, xətvariyədək olur. Qıvrımlar hətta meyvə yetişdikdə belə qısa, sıx, gövdənin təpə hissəsində (çox aralı salxım şəklində deyil) yerləşərək çiçəkaltlığı orta iri üçkünc-lansetşəkillidir; kasacığı kiçikdir, bir-birinə sıxılmışdır, uzunluğu çiçəklənmə zamanı 6 mm, meyvə yetişdikdə 8-10 mm olur; tüklənməsi sıx, vəzlidir, azsaylı qıllıdır, dişcikləri qısa olaraq uzunluğu 1,5-3 mm-dir; çiçək tacı kiçik, kasacıqdan bir az kənara çıxır, qatlağı çox qısalmış olaraq uzunluğu 2-3 mm, diametridə təxminən 3 mm olur; eremlərin uzunluğu 3,5 mm-dir, düz,uzunsov, zəif və ya güclü yumşaq tükcüklüdür. IV-V;.V-VI

1830-cu ildə, K.A.Meyer tərəfindən Lənkəranla slyan arasından təsvir olunub(LE).

**Seksiya 1. *Orthocaryum* DC.; Cərgə III. *Rosea* M.Pop.**

**5.** ***N.rosea*** **(Bieb). Link.** (1821) Enum. Hort. Berd. Alt. I 167; М.Попов 1953, Фл. СССР 19:324; Кадыров 1957, Фл. Азерб. 7:178; Гроссг. 1967 Фл. Кавк. 7:272 - Çəhrayı k.

Birillik bəzən də ikillik bitkilərdir. Çox vaxt çoxgövdəlidir; sütunuğun hündürlüyü 20-30 sm-dir, yüksələn, hərdən düz, qısa yumşaq tüklü və müxtəlif dərəcədə, lakin ümumilikdə çox olmayan, əsasən də yuxarı hissədə aralı qıllı, qüvvətli, sadə və ya yuxarıda tək budaqlıdır; çox vaxt az-çox inkişaf etmiş kökyanı rozetləri var (yəni qışlayan bitkidir); bu cür rozetlərin yarpaqlarının uzunluğu 10 sm-dək olur, kürəkşəkilli- uzunsov və ya kürəkşəkilli- lansetşəkillidir, adətən kənarları boyunca dişcikli olaraq get-gedə saplağa dartılmışdır, eni 5-7 mm-dən 15 mm-dək, kütdür; aşağı yarpaqları qaidəyə doğru qısa ensizləşmişdir, yuxarıdakı və ortadakılar oturaq, itiuclu, uzunluğu 1-4 sm, eni 5-10(20) mm-dir; çiçəkaltı yarpaqlar yumurtaşəkilli, iri və ya uzunsov, və ya lansetşəkillidir, bu zaman az görünür; yarpaqlar az-çox sıx yumşaq tüklərlə örtülmüşdür və müxtəlif dərəcədə qıllıdır. Qıvrımlar əvvəl sıx, meyvə yetişdikdə isə düz və uzanmış, kifayət qədər boş, uzunluğu isə 10 sm-dək olur; meyvə saplağı qısa, uzunluğu 1-3 mm-dir; kasacıq meyvə yetişən zaman az-çox enli (uzunsov və ya yumurtaşəkilli) kisəşəkilli, az-çox vəzli-yumşaq tüklüdür və ümumiyyətlə çox güclü qıllı deyil, dişcikləri üçkünc, iti, uzunluğu 2-3 mm-dir; çiçək tacı az-çoz tünd-çəhrayıdır; borucuğu gah kasacıqdan qısa, gah da uzundur və qatlağı (zəngşəkillidir) az-çox inkişaf etmiş, diametri 3-4 mm-dir, az-çox yumşaq tüklü, demək olar ki, qırışsız, bozdur; birləşmə halqası bazaldır, hamar, bir az yumşaq tüklüdür. IV-V; V-VI.

Qafqazdan, Kizlyardan təsvir olunub.

**6.** ***N.versicolor*** **(Stev.) Sweet.** Hort. Brit. ed 1 (1827) 292; М.Попов 1953, Фл. СССР 19:326; Кадыров 1957, Фл. Азерб. 7:178; Гроссг. 1967 Фл. Кавк. 7:272; Добрачаева 1981, Фл. Евр. ч. СССР 5:15?; -Müxtəlifrəng k.

Birillik, ikiillik və ya çoxillikdir. Çox vaxt bir neçə sütuncuğu olur, yüksələn və ya düz, möhkəm, sadə və ya yuxarıdan budaqlı, bozumtul-yumşaq tüklü, yuxarıdan vəzli-yumşaq tüklüdür və bitkinin əsasən yuxarı hissəsində bir neçə aralı qılları var; yarpaqları lansetşəkillidir, aşağıdakılar adətən kürəkşəkilli olaraq getdikcə kasacıq formasına qədər ensizləşir, kütdürlər, orta və yuxarıdakılar oturaq, iti, hamısı demək olar ki, bütövkənarlıdır, hərdən xırdadişcikli, yumşaq tüklü və çox seyrək nazik qıllı olur, çiçəkaltı yarpaqlar isə lansetşəkillidir. Meyvə verən qıvrımlar qısadırlar, uzunluğu 3-5 sm-dir, kifayət qədər sıx və ya boş, düzdür; meyvə saplaqları qısa, uzunluğu 2-4 mm-dir, başı aşağı əyilir, aralı vəzli- yumşaq tüklüdür; kasacıq kifayət qədər qısa, meyvə yetişdikdə yumurtaşəkilli-kisəşəkilli olur, uzunluğu 7-10 mm-dir, qısa və enli ücbucaqlı küt dişcikləri var, xırda vəzli-yumşaq tüklü və çox seyrək uzun qıllıdır; çiçək tacı iri, açıq bənövşəyi-çəhrayıdır, borucuğu kasacığa bərabərdir, qatlağı enli zəngşəkillidir, uzunluğuna görə borucuqdan uzundur, diametri 10-15 mm-dir, hissələri çox qısa və enlidir; eremləri açıq-boz, yarıməyilmiş, arxa hissədən qövsşəkillidir, qarın daraq, lakin çəpəkidir, təpə hissəsi yuxarıya və kənara çıxır, qırışları qalın, kəskin görünərək əvvəlcə qaidədən düz yuxarı böyüyür, sonra isə təpə hissədə əyilir; aralarındakı səth xırda nöqtəli-qabarcıqlıdır; birləşmə halqası qalınlaşmış və yumşaq tüklüdür. V-VI; VI-VII. Qafqazdan, Kazbekdən təsvir olunub.

**Seksiya 2. *Cryptanthera* DC.; Cərgə I. *Pictae* M.Pop.**

**7. *N. caspica* (Willd.) G.Don** 1838, Gen. Syst. 4:336; М.Попов 1953, Фл. СССР 19:334; Кадыров 1957, Фл. Азерб. 7:181; Гроссг. 1967 Фл. Кавк. 7:272; *Onosma caspica* Willd. 1798. Sp. Pl. 1:775; Добрачаева 1981, Фл. Евр. ч. СССР 5:15; - Xəzər k.

Birillikdir. Yazlıq, nadir hallarda qışaltı bitkidir, uzunluğu 5-30 sm-dir; sütuncuğu çox vaxt qaidədən budaqlanan, budaqları başı aşağı əyilmiş və ya hətta şaxəlidir; bitki çox vaxt çoxgövdəli görünür, nadir hallarda (sıxılmış fərdlərdə) sütuncuq az budaqlanan və ya sadədir, bu zaman adətən alçaqdır; gövdənin tüklənməsi adətən xırda seyrək bozumtul yumşaq tüklərdən, həmçinin bitkinin yuxarı hissəsində və ya hər yerində vəzli, az-çox bol və az-çox uzun aralı qıllardan ibarət olur; yarpaqlar lansetşəkilli, ensiz, uzun itiucludur, əsasən də aşağıdakılar kənarları boyunca bu və ya digər dərəcədə xırdadişcikli, yuxarıdakılar isə çox vaxt bütövkənarlıdır; yarpaqların uzunluğu 2-5 sm, eni 3-4 mm–dən 10 mm-dəkdir, az-çox vəzli-yumşaq tüklərlə seyrək örtülür və bu tükcüklərin kənarları boyunca uzun kipriklidir; çiçəkyanı yarpaqlar ensiz lansetşəkilli və ya lansetşəkilli-xətvari, uzun və uzun itiucludur. Meyvə verən qıvrımları boşdur, lakin müxtəlif dərəcədə: gah boş olur, gah da qatılaşmış; meyvə saplağı qısa və başı aşağı əyilmişdir; meyvə verən kasacıq yumurtaşəkilli və ya şarşəkilli-kisəşəkillidir, çox böyük deyil, uzunluğu 7-10 mm-dir; dişcikləri üçkünc-lansetşəkilli, uzun və nazik (demək olar ki, bizşəkilli) iti olaraq təxminən kasacığın bölünməmiş hissəsinə bərabərdir, kasacığın tüklənməsi az-çox sıx vəzli-yumşaq tüklərdən və az-çox bol və müxtəlif uzunluqlu, lakin elə də çoxsaylı olmayan qıllardan ibarətdir; çiçək tacı kiçikdir və ya böyük deyildir, adətən bənövşəyi-qırmızı, hərdən çəhrayı və ya ağ, kasacığa bərabər olan borucuqlu, adətən sarımtıl və ya ensiz zəngşəkilli qatlaqlı olur ki, bu qatlaq da gah uzunluğuna görə borucuğa bərabər olaraq diametri böyük olur (4-5 mm-dək), gah da borucuqdan qısa olaraq az inkişaf edir və diametri 3-4 mm olur, hissələri kiçikdir, uzunluğu təxminən 0,5-1 mm-dir; eremləri qaradır, cismi üfüqi, qısa yumurtaşəkilli, uzunluğu 3 mm-dir, çılpaqdır və yuxarıda eninə yerləşən çılpaq və ya xırda yumşaq tüklü göbəkcikli halqanın üzərində yerləşir; göbəkcikləri 10-15 saydadır, itiucludur, halqanın azad (aşağıdakı) kənarında dişciklər şəklində çıxır, fındıqcığın kənarlarında isə demək olar ki, arxa hissəsinədək düz qırışlar – vəzlər şəklindədir. IV-V; V-VII.

Xəzərsahili ovalıqdan təsvir olunub. ("In locus arenosis ad maro Caspium")

**8. *N.diffusa* Boiss.et. Buhse** 1860, Mem. Sos. Nat. Mosc. 1860 :152 - *N.caspica* var. diffusa М.Попов 1953, Фл. СССР 19:335 - Səpləng k.

Birillik bitkidir. Çiçək tacı daha böyük, parlaq çəhrayı-bənövşəyi, qatlağı kifayət qədər iri, diametri 4-5 (6) mm-dir (Yerevan nümunələrində xüsusilə böyükdür, onların diametri 10 mm-dəkdir). Meyvə verən qıvrımlarının kasacıqları çox aralıdır (buna görə müəlliflər yazırdılar: çiçəklər yuxarı yarpaqqoltuqlarında tək-təkdirlər). Çoxlu miqdarda tükcüklərlə örtülmüşdür. Qıvrımda kasa yarpaqları daha iridir,iri sərttükcüklü bitkidir. Bu növ xüsusən bizdə Araz və Talışda bolluca və tipik olaraq təmsil olunmuşdur. Buraya "Herb. Fl. cauc.", n$^{o}$ nümunələri. Bu növ bir çox alimlər, o cümlədən də M.Q.Popov rərəfindən *N.caspica* növünün Zaqafqaziya rasası hesab olunur.

f. *erivanensis* M.Pop. – Çoçək tacı xüsusilə iridir. Buraya "Pl. or. exs.", n$^{o}$ 120 nümunələri. IV-V; V-VII.

Qafqazdan təsvir olunub. "Herb.Fl.cauc", n$^{o}$ 182(LE?).

**9. *N. bakuensis* M.Pop. ex V.N.Karimov sp. nova –** *N.caspica* (Willd) G.Don. var. *bakuensis* M.Pop. 1953, Фл. СССР. 19:235 (sect. Cryptanthera A.DC.) *Nonea bakuensis* Popov, l. c.: 335, nom. inval., in syn.; *N. picta* var. *szovitsiana* Kusn.в Mat.фл.Кавк.4,2:314, quoad pl.bakuensem. Bakı k.

Birillik sıx tüklənmiş, boz bitkidir. Gövdəsi əsasda (qaidədə) çoxsaylı uzanmış (yayılmış) budaqlarla budaqlanmış, hündürlüyü (4) 8-30 sm, gövdəsi bərk, az tükcüklü və ya demək olar ki tüksüzdür. Yarpaqları lansetli, dar lansetli və ya xəttvari-lansetli, ucu şiş, oyuqlu dişcikli və ya bütöv kənarlıdır, kənarlardan isə çox dişcikli və ya qısa-kirpikciklidir. Çiçəkyanı yarpaqlar dar lansetli, ucu şiş, çiçəklərdən uzundur. Meyvə verən qıvrımları boş, meyvə saplaqları qısa, az-çox üfüqidir. Kasacıq meyvə yetişəndə qabarır, uzunluğu 9-12 mm-dir, dişciklər nazik ucuşiş, boz vəzili-tüklü olaraq azsaylı nazik tükcüklü, bir az daha iridir, dişcikləri isə daha nazik ucuşişdir. Çiçək tacı tünd bənövşəyidir, borucuğu kasacığa bərabər, qatlağı dar, diametri 4-5 mm-dəkdir, uzunluğu borucuğun uzunluğuna bərabər və ya nisbətən daha qısadır. Fındıqçaların üzünluğu təxminən 3 mm-dir, qara, çəpəki durur, demək olar ki, üfüqi, çılpaq tüksüz, halqaları sərt köndələn qırışlıdır.

Holotipi: "Prov. et distr. Baku. Pr. st. viae ferr. Alat, ad rupes vulcasicis, 140, 1902, Alexeenko" (LE). Bu herbari nüsxəsində 1950-ci il tarixli teste var ki, onu da M.Q.Popov "*Nonea caspica* (W.) G. Don. var. *bakuensis* M.Pop" kimi təyin etmişdir. III-IV; IV(V)

Paratip: Azərbaycan, Abşeron yarımadası, Bakı şəhəri, Türkanla Hövsan qəsəbələrinin arasında, 24 III 2015, V. Karimov (LE, BAK);

Azərbaycan, Abşeron yarımadası, Sumqayıt şəhəri, EP-300 zavodunun, Polymir-120 istehsalatının ərazisi, 28 III 2015, V. Karimov (LE, BAK).

**10.** ***N.melonocarpa* Boiss.** 1849, Diagn. Pl. Or. ser 1, 11:96; 322; Kusn. 1913, Fl lauc. Crit 4, 2:314; М.Попов 1953, Фл. СССР, 19:332; Ridl 1963, österr. Bot. Zeitschz. 110:527; - *N.caspia* subsp. *melonocarpa* (Boiss); Т.Н.Попова 1980 фл. Арм. 7:234 - Tutqunmeyvəli k.

Birillik, lakin çox vaxt qışlayandır, belə olduqda kökyanı yarpaqların rozetləri olur və daha qüvvətli, daha çoxgövdəli olur; adətən bir neçə sütuncuğu olur ki, onlar da zəif yüksələn və ya daha möhkəm olaraq hündürlüyü 10-30 sm, çox sıx olmayan vəzli-yumşaq tüklü və nazik azsaylı, lakin buna baxmayaraq aydın görünən qıllı olur, sadə və ya budaqlanandır; aşağı yarpaqları adətən qışəvvəli fərdlərdə xüsusilə çox olur, qısa və ya ensiz lansetşəkilli-kürəkşəkilli, küt, kənarları boyunca xırda, lakin çox vaxt dişcikli, getdikcə uzun dartılmış, adətən meyvə yetişənə yaxın solur, yuxarıdakı yarpaqlar enli lansetşəkilli, uzunluğu 2-5 sm, eni 1 sm-dir, çox vaxt demək olar ki, bütövkənarlı, itiucludur, çiçəkaltı yarpaqlar uzunsov, itiucludur və ya ən yuxarı yarpaqlar lansetşəkilli, hamısı vəzli-yumşaq tüklü və bir az nazik qıllıdır, kənarları boyunca kipriklidir. Meyvə verən salxımları kifayət qədər boş və ya boş və uzun - 3-10 sm-dir, meyvə saplaqları nazik, qısa, aralı yumşaq tüklü, aralanmışdır, ən aşağıdakəlar 3-4 mm-dən uzun deyil; kasacıq meyvə yetişən zaman yumurtaşəkilli və ya hətta zəngşəkilli-kisəşəkilli, uzunluğu 7-8 mm-dir, az-çox sıx vəzli-yumşaq tüklü və bir az nazik qıllıdır; dişcikləri kifayət qədər qısadır, uzunluğu 1-3 mm-dir, enli, uzunsov- üçkünc, itiuclu, lakin çox uzun itiuclu deyil; çiçək tacı tünd və ya açıqbənövşəyidir, çox boyük deyil, borucuğu təxminən kasacığa bərabərdir, qatlağı ondan qısa olaraq uzunluğu təxminən 3 mm, diametri 2-3 mm-dir, aşağıdan borucuqludur, sonra isə bir az zəngşəkilli olaraq qısa balaca hissəlidir; fındıqçaların uzunluğu 4 mm-dir, üfüqi, demək olar ki, tumurcuqşəkillidir, alçaq (birləşmə yeri çox aşağı olduğu üçün), tündqəhvəyi, yumşaq tüklü, halqada daha uzun, cismdə isə qısadır; halqası qarıncıqdadır, çıx aşağı, uzunsov-ovaldır, aydın olmayan və eninə göbəkciklidir, xarici azad kənarları xırdadişciklidir; onun aydın olmayan göbəkciyindən fındıqcanın kənarlarına düz qalın, qısa qırışlar çıxır. V; VI

Fələstin-Yərusəlimdən təsvir olunub (Cenevrə), Typus: “Circa Hierusolymam”, G.Boiss.

**Seksiya 2. *Cryptanthera* DC.; Cərgə II. *Pullae* M.Pop.**

**12.** ***N.intermedia* Ledeb.** Fl. Ross. III (1849) 111; Boiss. Fl. or. IV, 167; Кузн. в Мат. Фл. Кавк. IV, 2, 325; Гроссг. Фл. Кавк. III, 264. – Exs.: Pl. or. exs. n$^{o}$ 291. – Aralıq k.

Çoxillikdir. Kökləri şaquli, kifayət qədər qalın, qara, ucunda iri kökyanı yarpaq rozetləri və 1-3 çiçək saplaqlı gövdəsi olan qısa çoxbaşlıqlıdır; gövdənin hündürlüyü 30-50 sm, qalın, düz və ya yüksələn, yumşaq tüklüdür, qılları çox sərt deyil, çox seyrək nazik qıllanmış, yalnız yuxarı hissədə sıx yarpaqlı olaraq böyük olmayan süpürgəli qıvrım topalarını (yığımlarını?) təşkil edir; kökyanı yarpaqlar (rozetləri) uzunsov-kürəkşəkillidir, uzunluğu 10-15 sm, eni 2-3 sm, kökün əsasına doğru uzunsov daralmış, ucu azacıq şiş, seyrək yarımsıxılmış tüklü-tükcüklü, tamkənarlı və kirpikciksizdir; gövdə yarpaqları çoxsaylı, ən aşağıdakılardan başqa digərləri lansetşəkilli olanadək uzunsov, oturaq və əsasda demək olar ki, ürəkşəkilli, uzunluqları 3-6 sm, eni 1,0-1,5 sm-dir, ucuşiş, kənarlaşan, hərdən dalğavaridir, lakin kənarları dişcikli deyil, seyrək yarımsıxılmış tüklü-tükcüklüdür; süpürgəsi çox böyük olmayaraq meyvələrdə demək olar ki, qalxanşəkillidir. Qıvrımları kifayət qədər qısa, azçiçəklidir, çiçəklərdə sıx başlıqlı, meyvələrdə boşdur, uzunluğu 3-5 sm, düzdür; meyvə saplağının uzunluğu 3-8 mm, başıaşağı və ya sallaqlıdır; meyvə kasacıqları kisəşəkilli-zəngvari, uz. 10-12 mm, sıx qıvrım, vəzli-tüklüdür, uzun iynəşəkilli tükcükləri yoxdur, hərdən demək olar ki, keçə kimi, hərdən isə boz-tükcüklüdür; dişcikləri enli üçbucaqlı, az-çox qısadır (kasacığın kəsikli olmayan hissəsinin uzunluğunun ¼-½-i qədər); tacı açıq bənövşəyi, dəyişkən çalarlı, gah bir az çox qırmızı, gah da daha çox göy çalarlıdır, kifayət qədər iridir; borucuğu kasacıqdan qısa, təxminən 5-6 mm uzunluğundadır, qatlağı isə enli, kasaşəkilli-zəngvari, diametri 10(15-dək) mm-dir; fındıqcığı qara, kifayət qədər iri, hündürlüyü və uzunluğu 4 mm-dir, cismləri kürəşəkilli-yumurtaşəkilli, çox qırışlı, bir az tüklüdür, halqası hündür (yuxarıda?), поперек-рубчатое. IV-V; V-VI

Quriyadan (Nordman) təsvir olunmuşdur. (LE)

**12.** ***N. cyanocalyx* M.Pop. ex V.N.Karimov sp.nova** – *Nonea pulla* (L.) DC. var. *cynocalyx* Popov in Schischkin (ed.), 1953, Фл. СССЗ. 19:339; N. *cynocalyx* M.Pop. цит. соч. 19:338, nom. nud. (sect. *Cryptanthera* A.DC.) sp. nov. - Fig. 1C, 3. *Nonea cyanocalyx* Popov, l. c.: 339, nom. inval., in syn. Göykasacıqlı k.

Çoxillik bitkidir. Gövdəsi şaquli kökdən tək və ya bir neçə sayda, düz və ya yüksələndir, hündürlüyü 10-25 sm, tüklənməsi sıxılmış qısa tükcüklüdür; gövdə və yarpaqlarının üzərində olan qısa,

aşağı istiqamətlənmiş tükcüklərə görə, həmçinin kasacığın qısa, sız, nazik, düz tükcüklərə və qıvrım vəzili tüklərə görə bozdur (kasacıqların özü çox vaxt göyümtüldür). Yarpaqları enli, uzunsov-lanset və ya lansetşəkillidir, aşağıdakı və rozetvari yarpaqlar uzunluğu 10 sm-dək olan saplağa uzanmışdır, yuxarıdakılar isə əsasda ürəkşəkilli (?) və bir az aşağı istiqamətli (aşağıqaçan) olur. Qıvrımlar qısadır, çiçəkqrupu qalxanşəkilli-süpürgəvari, meyvə yetişəndə boşdur, kifayət qədər qısa, lansetşəkilli çiçəkyanı yarpaqları var. Kasacıqları iri, uzunluğu 10-12 mm-dir, qısa çiçək saplağıın üzərindədir, meyvə yetişəndə aşağı sallanır, uzunluğunun ¼-1/2 qədər kəsiklidir, dişcikləri üçbucaqlı-lansetlidir, meyvə yetişdikdə qabarır zəngvari, qısa vəzili tükcüklü və çoxsaylı uzun cod qıllıdır. Çiçək tacı iridir, uzunluğu 10-15 mm, tünd bənövşəyi, qonur rəngdə olaraq kasacıqdan 1/3 qədər uzundur, əsnəkdə tükcük topası var; çiçək tacının borucuğu demək olar ki, kasacığa bərabərdir; qatlağı zəngvari, uzunluğu borucuğa bərabərdir. Fındıqçaları xırda, uzunluğu təxminən 3 mm-dir, yumurtaşəkilli, torlu-qırışlıdır, iri ölçülü olub, uzunluğu 12-15 mm-dir. IV-V;V-IV

Holotipi: “Azərbaycan. Naxçıvan MR, Şahbuz r-nu, Biçenak dağ keçidi (перевал), təxminən 2400 m, alp çəmənlikləri 25, v.1917” (LE).

Paratipi: “Azərbaycan, Naxçıvan MR, Şahbuz r-nu, Batabat bataqlığının yaxınlığı, təxminən 2100 m., qayalıq yerdə. A.A.Qrossgeym, İ.A.İlyinskaya və M.N.Karpinskaya, 26, v. 1947” (LE).; Azərbaycan, Naxçıvan MR, Şahbuz r-nu, Batabat Gölünün ətrafı, Zorbulağın yaxınlığında ~2400 m. V.N.Karimov 23.5.2015. (Le, BAK).

**13.** ***N. persica*** **Boiss.**1846, Diagn Pl. Or. Nov. ser. 1, 7:32; 1846; *N.pulla* (L.) DC. var. *persica* (Boiss) Popov 1953, Фл. СССР, 19:340; M.Khatamsaz 2002, Flora of Iran 39:2005 **-** *N.pulla* var. *persica* (Boiss) M.Popov 1953, Фл. СССР 19:340; *N.pulla* (L)DC. var. *armena* Boiss. et Huet 1856, in Boiss., Diagn. Pl. Or. Nov., Ser. 2, 3:133. **-** *N.armena* (Boiss et Huet) Boiss. 1879, in Boiss. Fl. Or. 4:167 (pro. syn. *N.pulla* (L.) DC), non steven 1851, Bull. Soc. Nat. Moscou, 24(1): 574 **-** *N.pulla* var. *armeniaca* Kusn. 1913, Fl. Cauc. Crit. 4(2):321 **-** *N.armeniaca* (Kusn.) Grossh. 1949, Опред. раст. Кавказа: 290. **-** *N.pulla* subsp. *monticola* Rech. F. 1947; Ann. Naturn. Mus. (Wien), 55:15, p.p. excl. typ**-** İran k.

Kökü qalın, qısa çoxbaşcıqlıdır, sütuncuq bir neçə sayda olaraq çox hündür deyil, çox vaxt azca qalxandır, xırda aşağı istiqamətli qıllar və vəzli tükcüklərlə örtülmüşdür, qılsızdır (lakin bəzi İran nümunələrində, əsasən də İezda, Buze dağlarında aralı qıllıdır). Yarpaqları lansetşəkilli-xətvari və xətvaridir, daha çox *N.armeniaca* Grossh.növündən ensizyarpaqlı olması ilə fərqlənir.

Azərbaycan florası üçün yeni verilir. Rusiya EA Botanika institunun Herbariumunda aparılan tədqiqat zamanı bu növün Naxçıvan MR (Ordubad rayonu, Nyus-nyus 2500 m d.s.h. T.Popova, 7-VI.1980 n LE; Hasırvəz kəndi ətrafı 19 VI 1931, İ.Karyagın-LE) və Talışdan Lerik rayonu, Aşağı Anbudərə kəndi (13 km) cənuba doğru, L.Menitski, 8 VI 1979, LE) toplanılan nüsxələri aşkar edilmişdir.

İrandan təsvir olunub: Lectotypus: (İran) “ad receptacula nivis (an den Schneebehatern) n. Kuh Barfi u. Schiras, 3.05.1842” Th.Kotschy 328; iso.: G-Boiss., W.fl., синтипы “in alpe Kuh-Далпа, propte nives, vii 1842” Kotschy 907. G-Boiss.W.

**14.** ***N. armeniaca*** **(Kusn.) Grossh.** Опр. раст. Кавказа 1949, с. 290.; *N.pulla* subn. armeniaca (Kusn.) Soo 1965, Acta Bot.Acad.Sci.Hung.11.1-2:246; *N.pulla* var. *armeniaca* Kusn.1913, Mat .фл. Кавк. 4,2:321; *N.armeniaca* Grossh, nom. nud.) *N.pulla* (L.) DC.1805, Fl. Fr. ed 3,3:626; М.Попов 1953, Фл. СССР, 19:337; Кадыров 1957, Фл. Азерб. 7:178; Гроссг. 1967, Фл. Кавк. 2, 7:272 - Erməni k.

Çoxilik bitkidir. Gövdələri çoxsaylıdır, yarpaqlarla birgə qısa vəzli, arada daha uzun aralı cod tükcüklərlə örtülmüşdür. Çiçək qrupu boş budaqlanandır. Kasacıq çox böyük deyil, ¼ qədər çapılmışdır, üçbucaqşəkilli şiş dişcikləri var. Çiçək tacı balaca, uzunluğu 88 mm-dəkdir, qara-bənövşəyi, yalnız yuxarıdan kasacıqdan bir az uzun olur, qısa qatlaqlıdır. Fındıqçaları xırda, sıxılmış, torşəkilli qırışıqdır. M.-Пер.: Сомх. Мегр. Мал.: Дж. Ир.: Ermənistan, Naxçıvan. Orta və yuxarı dağ qurşaqlarında. Quru açıq yamaclarda, hərdən zibilliklərdə.:V-VI; VI-VII

**15.** ***N.lenkoranica*** **(Kusn.) Grossh.** Опред. раст. 290. – *N.pulla* var. *lenkoranica* Kusn 1913 b “Mat. фл. Кавк.” 4,2:322; *N.pulla* var.*lencoranica* Гроссгейм, III, 264.– *N.pulla* Boiss. IV, 166 p.p. – *N.ciliata* DC. – Ldb. III, 112 p.p. – *N.pulla* v.*armeniaca* M.Pop. во Фл. СССР, XIX, 339 p.p.

Çoxillikdir. Gövdələri düz, uzuntüklüdür. Aşağı yarpaqları böyük, uzunsov-lansetli, əsasa doğru saplağa ensizlənir, gövdə yarpaqları oturaq uzunsov-lansetli, gövdəni əhatə edən, hamısı aydın olmayan qeyri-bərabər dişciklidir. Kasacıq xırda, yarıya qədər çapılmış, ensiz ucuşiş dişcikləri var. Çiçək tacı xırda, uzunluğu 8 mm-dəkdir, qara-al qırmızıdır. Fındıqçaları xırda, torlu qırışlıdır. Диаб.

Növün digər populyasiyalardan kasacığının ortasına qədər hissələrə bölümlü olması və daha iri çiçəklərə malik olması, çiçək qrupunun isə nisbətən daha sıx olması ilə seçilir. Talışın meşəsiz Zuvand ərazisindən, orta dağ qurşağının quru daşlı və çınqıllı yerlərində yayılıb. Kserofit bitkidir. IV-V; V-VI

Zuvanddan təsvir olunub.

**16.** ***N.daghestanica*** **Kusn**. 1913, Mat. Фл. Кавк 4,2:320; М.Попов 1953, Фл. СССР 9:342; Кадыров 1957, Фл. Азерб. 7:183; Гроссг. 1967, Фл. Кавк. 7:273-Dağıstan k.

Çoxillikdir. Kökümsovu sürünən, nazik, uzun budaqlı olaraq təpə hissədə çiçəklənən gövdəyə keçir; kökyanı rozetləri yoxdur; sütuncuğu yüksələndir, qaidədən aralı budaqlıdır, hündürlüyü 15-30 sm, aşağı hissəsində meyvəsiz, demək olar ki, döşənmiş budaqları var ki, onlar da aralı, cod, demək olar ki, tikanlı qıllıdır, qıllar gövdənin yuxarı hissəsində daha sıxdır və bundan başqa xırda qılcıqları da var; yarpaqları lansetşəkilli olaraq kənarları paraleldir, küt, demək olar ki, bütövkənarlıdır, uzunluğu 2-4 (5) sm, eni isə 0,5-1 smdir, əsasən də yuxarı səth boyunca sıx və aralı, aşağıdan isə daha seyrək, cod qıllıdır, qılları iri qabarcıqların üzərindədir, kənarlar boyunca cod, orta uzunluqlu qıllardan kipriklidir. Çiçəkqrupu düz olmadan və boş olaraq aralı sipərşəkilli, böyük deyildir; qıvrımları boş, meyvə yetişdikdə uzanaraq 10 sm-dək olur; çiçəkyanı yarpaqlar lansetşəkilli, itiuclu olaraq çiçəklərdən uzundur; meyvə saplaqları görünəndir, uzunluğu 5-12 mm, aşağı çevrilmiş, uzun cod kisəşəkilli, sıx və ya cod qıllıdır, qıllarının arası boş vəzli-yumşaq tüklüdür, dişcikləri enli üçkünc, küt, kasacığın bölünməyən hissəsindən iki dəfə qısadır; çiçək tacı qara-qırmızı-bənövşəyidir, borucuğu kasacığa bərabərdir, qatlağı qısa, uzunluğu 4 mm-dir, borucuqdan qısa olan kifayət qədər enli zəngşəkilli, eninə kəsikdə 6 mm, qısa hissələri var; fındıqçaları iridir, uzunluğu və hündürlüyü 6 mm-dir, demək olar ki, şarşəkilli olaraq kəskin və qalın torşəkilli qırışlı, çılpaqdır, birləşmə yeri hündür, eninə göbəkciklidir, aşağı kənarı hərdən dişciklidir. Dağıstan endemi hesab edilsə də sonradan Şimalı Qafqazın Dağıstana yaxın digər rayonlarından və Dağıstanla həmsərhəd Azərbaycanın-Quba rayonu, Qonaxkənd (Aput) kəndi ərazisindən və 2016-cı ildə tərəfimizdən Qubanın Xınalıq-Cek kəndlərinin ərazisindən toplanılmışdır. VI-VII; VII-VIII

Dağıstandan təsvir olunub. (LE).

**17.** ***N.decurrens*** **(C.A.Mey) G.Don** fil 1838, Syst. 4:337; ) М.Попов 1953, Фл СССР 19:341; Кадыров 1957, Фл. Азерб. 7:182; Гроссг 1967, Фл. Кавк. 7:275 - Əyilən k.

Çoxillikdir. Kökü görünür ki, şaquli və kifayət qədər qalındır, təpə hissədə qısa budaqlanandır, başcıqlarının birindən meyvə verməyən rozetlər, digərindən isə çiçəkləyən gövdələri çıxır; sütuncuq möhkəm, qüvvətli, qabırğalı-şırımlı, qısa və qıvrım, yuxarı hissədə vəzli-yumşaq tüklüdür, iynəşəkilli qılları yoxdur, hətta bir az məxməridir, hündürlüyü 30-50 sm, lakin yuxarı hissədə sipərşəkilli budaqlanandır; meyvə verməyən kökyanı rozetlərin yarpaqları enli uzunsov-lansetşəkillidir, ən yuxarıda, çiçəkqrupunun altında yerləşənlər isə yumurtaşəkilli-uzunsov olaraq hamısı enli qaidəlidir, onların da kənarları qısa klin şəklində olaraq gövdədən çıxan qabırğaların birinin üzərindən aşağıya doğru yönəlir; yarpaqların hamısı itiucludur, uzunluğu 3-8 mm, eni 1-3 sm-dir, qısa vəzli-yumşaq tüklü, kənarlardan isə bütöv və kipriksizdir. Çiçəkqrupu qısa bol yarpaqlı qıvrımlardan ibarət sipərşəkilli qısa süpürgə şəklindədir; çiçəkyanı yarpaqlar iridir, uzunluğu 2-3 sm-dir, yumurtaşəkilli və ya uzunsov, çox itiuclu olaraq çiçəyin üzərini örtür; qıvrımlar çox azsaylıdır, meyvə yetişəndə boş, uzunluğu təxminən 3 sm olur; meyvə saplağı qısa, qalın, uzunluğu 2-8 mm-dir, aşağı əyilən, vəzliyumşaq tüklüdür; meyvə verən kasacıq enli (demək olar ki, şarşəkilli) zəngşəkilli-kisəşəkillidir, sıx qısa və bir az vəzli-yumşaq tüklü, kifayət qədər iridir, uzunluğu 10-13 mm olaraq enli üçkünc iti dişcikləri var ki, onlar da kasacığın bölünməmiş hissəsinin uzunluğuna bərabərdir; çiçək tacı tünd-qırmızı, balaca, kasacıqdan bir az kənara çıxaraq uzunluğu 8-9 mm-dir, qatlağı ensiz zəngşəkilli, eni 4-6 mmdir; fındıqçaları çox iridir (növdə ən irisi!), uzunluğu 7-8 mm-dir; yumurtaşəkilli-şarşəkilli üfüqi cismi qırışlı torşəkilli və yumşaq tüklüdür; birləşmə halqası hündür, hamar, göbəkciksizdir, *Orthocaryum* kimi sıx yumşaq tüklüdür; boşluğun içində aşağı kənar boyunca 30-a yaxın barmaqşəkilli dişcikləri var. IV-V; V-VI.

Azərbaycan, Lerik rayonu Perembel kəndindən təsvir edilmişdir. (LE).

**Seksiya 3. Cystocaryum DC.; Cərgə1.** ***Ventricosae*** **M.Pop**

**18.** ***N.ventricosa*** **(Sibth. et Smith) Griseb**. 1844, Spicil. FL. Rumel. 2:93; М. Попов 1953, Фл. СССР 19:334; Кадыров 1957, Фл. Азерб. 7:183; Гроссг. 1967 Фл. Кавк. 7:275; Добрачаева 1981, Фл. Евр. ч. СССР 5:15?; - Şişkin k.

Birillikdir. Qısa yunlu tüklü və seyrək qıllı, 10-40 sm hündürlükdə bitkidir. Yarpaqları lansetvari və ya uzunsov-lansetvari, tam kənarlı və ya xırda dişli, küt və ya sivri, aşağı yarpaqları qaidədə tədricən daralmış, kürəkvari, yuxarıdakılar oturaq. Qıvrımları sadə və ya ikiyə bölünmüş. Çiçək altlıqlarının yarpaqları lansetvari, çiçək altlıqlarının yarpaqları lansetvari, sivri, uzun. Kasacıq oturaq, meyvə zamanı şişmiş, şarvari-yumurtaşəkilli, aşağı əyilmişqısa tüklü və qıllı, 13-ə qədər ücbucaqlı lansetvari sivri dişlərə ayrılmış. Tac ağ, kasacıqdan az (fərqli) hündür, əyriliyi balaca.Qozcuqları boyrəkvarı,qəhvəyi, nazik tozvarı-qırışlı, cılpaq, qaidədə çox aşağıda olan həlqəli. IV-V, meyvə: V-VI.

Yunanstandan təsvir olunub. (In *Grecia camipestribus* et in insula Cypro, LINN).

## ƏDƏBİYYAT

**Azərbaycan Respublikasının Qırmızı Kitabı** (2013) II nəşr. Bakı, s. 530-541.

**Əsgərov A.M.** (2011) Azərbaycan florasının konspekti. Bakı: Elm, s .51-54

**Əsgərov A.M.** (2016) Azərbaycanın bitki aləmi. Bakı: TEAS PRESS, s. 320-328.

**Kərimov V.N., Dadaşova A.Q.,Safquliyeva T.C.** (2016) *Boraginaceae* Juss. və *Orchidaceae* Juss. fəsilələrindən Azərbaycan florası üçün yeni yayılma əraziləri müəyyən edilmiş növlər. *Müasir kimya və biologiyanın aktual problemləri mövzusunda beynəlxalq elmi konfransın materialları*. Gəncə. s. 203-209.

**Гроссгейм А.А.** (1949) Определитель растений Кавказа. М.: с. 281-296.

**Гроссгейм А.А.** (1967) Флора Кавказа. М.: АН СССР, **7:** 269-275.

**Доброчаева Д.Н.** (1981) *Boraginaceae* Juss. – Бурачниковые. *Флора Европейский части СССР*. Л., **5:** 113-179.

**Каримов В.Н.** (2016) Новые виды сосудистых растений для флоры Азербайджана. *Turczaninowia* (Алтайский гос. универ.), **19(№2):** 64-67.

**Кадыров Г.М.** (1957) Флора Азербайджана. Баку: АН Азерб. ССР, **7:** 175-184.

**Керимов В.Н., Аскерова Р.К.** (1999) О новых для Азербайджана родах семейства *Boraginaceae*. *Ботанический журнал* **84(2):** 122-124.

**Муртазалиев Р.А.** (2009) Род *Nonea* Medik . *(Boraginaceae* Juss.) **-** Ноннея. *Конспект флоры Дагестана*. Махачкала: Эпоха, **III:** 155-157.

**Попов М.Г.** (1953) Сем. *Borraginaceae* во флоре СССР. М.-Л., **XIX:** 317-344.

**Флора Грузии** (1985) Тбилиси: АН Грузинской ССР, **X:** 185-370.

**Черепанов С.К.** (1995) Сосудистые растения России и сопредельных государств. С.-Пб: Мир и семья, 875с.

**Bigazzi M., Selvi F.** (2000) Stigma form and surface in the tribe *Boragineae* (*Boraginaceae*): micromorphological diversity, relationships with pollen and systematic relevance. *Canadian J. Bot.*, **78:** 388-408.

**Bigazzi M., Selvi F.** (1998) Pollen morphology in the *Boragineae* (*Boraginaceae*) in relation to the taxonomy of the tribe. *Pl. Syst. Evol.*, **213 (1):** 121–151.

**Edmondson J.R.** (1978) In: *Flora of Turkey* (ed.by P.H.Davis). Edinburgh, **VI:** 232-437.

**Karimov V.N.** (2016) Two new species of *Nonea* Medik (*Boraginaceae* Juss.) from Azerbaijan; *Ботанический журнал*, **101 (№4):** 428-434.

***Nonea/Elizaldia/Pulmonaria/Paraskevia* (*Boraginaceae-Boragineae*)**. *Taxon*, **55:** 907–918.

**Pakravan M., Nejhad F.A., Tavassoli A.** (2009) Morphological and micromorphological studies of *Nonea* (*Boragibaceae*: Tribe *Boragineae*) in Iran. *Iran Bot. J.* (Tehran), **15(1):** 129-139.

**Riedl H.** (1967) *Boraginaceae.* In: Reichinger K.M. *Flora Iranica.* Graz.**No 48:** 281 p.

**Selvi F., Bigazzi M.** (2002) Chromosome studies in Turkish species of *Nonea* (*Boraginaceae*): the role of polyploidy and descending dysploidy in the evolution of the genus. *Edinb. J. Bot.*? **59(3):** 405–420.

**Selvi F., Papini A, Bigazzi M.** (2002) Systematics of *Nonea* (*Boraginaceae-Boragineae*): new insights from phenetic and cladistic analyses. *Taxon*, **51(4):** 719–730.

**Selvi, F., Bigazzi, M., Hilger, H.H., Alessio, P.** (2006) Molecular phylogeny, morphology and taxonomic re-circumscription of the generic complex

## Систематический Обзор Видов Рода *Nonea* Medik Флоры Азербайджана

**В.Н. Керимов, В.М. Али-заде**

*Институт ботаники НАН Азербайджана*

В статье был проведен критический анализ видов рода *None*a Medik, пересмотрена систематическая структура рода, составлен новый ключ для определения его видов, а также дано краткое описание видов. Для рода *Nonea* Medik из семейства Бурачниковых (*Boraginaceae* Juss.) во многотомнике "Флора Азербайджана" (Кадыров, 1957) описывается 11, а в книге «Конспект флоры Азербайджана» Айдына Аскерова (2011) приводится 14 видов. Мы увеличили это число до 18 путем описания 2 новых видов для науки и уточнения несколько новых видов доя нашей флоры.

***Ключевые слова:*** *Семейство Boraginaceae* Juss.*, род Nonea, таксон, секция, ряд, диагностический признаки, новые виды*

**The Systematic Analysis Of Species Of The *Nonea* Medik Genus In Azerbaijan Flora**

**V.N. Karimov, V.M. Ali-zade**

*Institute of Botany, Azerbaijan Natinal Academy of Sciences*

A critical analysis of the species of *Nonea* Medik genus has been held, a systematic structure of the genus and a new key for its determination has been issued, a number of controversial issues related to the genus taxonomy has been clarified in the article. A description of 11 species of *Nonea* Medik genus spread in our flora from the family *Boraginaceae* Juss. was stated in the voluminous work "Флора Азербайджана" ("Flora of Azerbaijan" by Kadyrov 1957) and its 14 species in the work by Aydin Asgarov "The concept of Azerbaijan flora" that we improved this number up to 18 by providing a new description of two species of this genus for science and by identifying a few more species that are new to our flora.

***Keywords:*** *Boraginaceae Juss. family, genus Nonea, taxon, section, diagnostic features, new species*

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 71, №3, səh. 59-61 (2016)

# Sərv Yarımfəsiləsinin Həmişəyaşıl Sərv (*Cupressus sempervirens L.*) Növünün Toxumlarının İnkişafına Tənzimləyicilərin Təsiri

**T.S. Məmmədov[1], C.Ş. Məmmədov[2], S.F. Hacıyeva[2]*, R.Ə. Əsədova[2]**

*[1]Azərbaycan MEA Dendrologiya İnstitutu, Mərdəkan qəsəbəsi, S.Yesenin küç. 89, Bakı AZ1044,Azərbaycan;*
*[2]Azərbaycan MEA Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Xocalı pr. 30, Bakı AZ1025, Azərbaycan;E-mail: sebine.haciyeva.00@bk.ru*

**Bitkilərin boy və inkişafını tənzim edən bioloji tənzimləyicilərin arealı çoxsaylıdır. Onlar toxumdakı rüşeymin inkişafına, tumurcuqların erkən oyanmasına, yarpaq, kök, gövdə vəçiçəklərin inkişafını tənzim edən, mürəkkəb tərkibli birləşmələrdir. Bioloji tənzimləyicilərin alınması da məhz mürəkkəb proseslərdəndir. Sonillər süni yollarla, kimyəvi sintez üsulları ilə və tənzimləyicilərlə çoxlu sayda alınmışdır. Onlardan biri AMEA-nın Neft-Kimya prosesləri İnstitutunda naften turşularının Na duzunun müxtəlif faizli məhlulları sintez edilmişdir. AMEA-nın Dendrologiya İnstitutunda sərv (*CupressusL.)*cinsinin həmişəyaşıl sərv növünün (*Cupressus sempervirens L.*) toxumlarının inkişafına təsiri müəyyən edilmişdir.**

***Açar sözlər:*** *Sərv, toxum, tənzimləyici, inkişaf*

## GİRİŞ

İnsan təbiətin bir hissəsi olub, onunla sıx bağlıdır. İnsanın həyat və fəaliyyətində təbiətin rolu böyükdür. Əhalinin sürətli artımı və elmi-texniki inqilab biosferdə deqradasiya proseslərinin əlamətlərini yaratmışdır. İllər ərzində formalaşan təbii ekosistemlər ciddi dəyişikliyə məruz qalaraq insanı ətraf mühitin xarici təsirinə qarşı davamsız vəziyyətə salınmışdır. Bu və digər sahələr təbiət üçün zərərli olmaqla yanaşı, həm də təbii resursların azalmasına səbəb olmuşdur. Əhalinin sürətlə artımı enerjiyə olan tələbatı 10 dəfə, materiallardan istifadəni 9 dəfə artırmışdır. Antropogen fəaliyyətin nəticələri aşağıdakı kimi təzahür olunur: meşələrin məhv edilməsi, çöllərin şumlanması, meliorasiya, süni göllərin və digər su mənbələrin yaradılması, meqapolislərin salınması, yol, kanal və geniş yolların tikilməsi nəticəsində yer səthinin landşaftı xeyli dəyişmişdir. Hazırda pozulmayan təbii ekosistemlərin yalnız 40%-ə qədəri qalmışdır. Atmosferdə istilik effekti yaradan toz və qazların toplanması nəticəsində yerin istilik balansı dəyişir, qlobal istiləşmə baş verir. Torpağın deqradasiyası (şoranlaşma, şorakətləşmə, eroziya, münbitliyin aşağı düşməsi) baş verir. Antropogen təsir nəticəsində ətraf mühitin çirklənməsi ağac və kol bitkilərinin azalmasına səbəb olur (Q.S.Məmmədov və Xəlilov, 2006, 2007).

Son dövrlərdə respublikamızda salınan yeni park və bağlarda, şosse yollarının ətrafında sərv cinsinə aid növlərdən geniş istifadə edilməkdədir. Lakin bəzi növlərin ekoloji amillərə davamlığının elmi əsaslarla öyrənilməsi, kortəbii əkinlərin aparılması, yaşıllaşdırma qaydalarına əməl edilməməsi, sonrakı illərdə bitkilərin məhv olmasına səbəb olur. Sərv cinsinə aid bəzi növlərin Abşeron şəraitində çoxaldılması və ekoloji amillərə davamlılıq kriteriyalarının təhlil edilməsi məqsədilə AMEA-nın Dendrologiya İnstitutunda elmi-tədqiqat işi aparılmışdır.

## MATERİAL VƏ METODLAR

Becərilən sərv bitkisinin bioloji və ekoloji xüsusiyyətləri onun rayonlaşdırılmasında əsas rol oynayır. Bunlar bitkilərin becərilmə texnologiya-sının əsasını təşkil edir. Bunun üçün ilk növbədə həmişəyaşıl sərv bitkisinin əlverişli inkişaf şəraitini bilmək lazımdır. Ədəbiyyat məlumatlarına əsasən deyə bilərik ki, sərv bitkisi qələm və toxumla asanlıqla çoxaldılır. Cücərtilər və kökatmış qələmlər tez böyüyür.Yazdan payıza qədər ayda bir dəfə gübrə verilir. Oduncağı yüksək keyfiyyətli və zərifdir, ona görə də sərvi başqa üslubda formalaşdırmaq çətindir. Toxumlar payızda və ya yazda nəm, rütubəti 20-30% olan torpağa səpilir. Cücərməni tezləşdirmək üçün 0-4°C temperaturda 1-3 ay ərzində stratifikasiya aparılmışdır. İstilər düşdükdə açıq torpağa səpilmişdir (T.S.Məmmədov, 2010).

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Həmişəyaşıl sərvi toxumla çoxaltdıqda cücərməsi üçün torpağın temperaturu 25°C-dən aşağı olmamalıdır.




**Şəkil 1.** Üzvi turşunun duzunun İK spektri.

***Cədvəl 1.*** 20 dekabr tarixində aparılan ölçmələr

| Variant | Cücərtilərin boy göstəriciləri (sm) | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 qab | 1,6 | 4.0 | 3.5 | 2.5 | 3.8 | 3.4 | 4.0 | 3.4 | 3.6 | 3.0 | 3.0 | 2.5 | 4.5 | 2.5 |
| 2 qab | 4.2 | 3.6 | 3.8 | 2.6 | 5.2 | 3.5 | 3.2 | 3.2 | 2.2 | 4.2 | 2.6 | 3.0 | - | - |
| Nəzarətvariantı | 3.8 | 4,0 | 2.5 | 2.5 | 3.2 | 3.4 | 2.5 | 1.6 | 2.5 | 4.0 | 3.0 | 3.0 | 3.6 | 3.2 |

Otaq temperaturunda bitkinin toxumları 2-3 həftəyə cücərir. Toxumlar torf, qum, torpağın çim qarışığına 1:2:2 nisbətinə əkilir. Yeni boy maddələrinin sintezi və onların əksər bitkilərdə tətbiqi aktualllıq kəsb edir (Галактионов, 1988). Neft əsaslı birləşmələrin stimullaşdırıcı qabiliyyəti məlumdur. Bu xassə $C_{12}$-$C_{18}$ tərkibli neft turşularına aid edilir. Elmi-tədqiqat işində üzvi turşunun duzu sintez edilmiş, sonra isə 0,001% və 0,0001% -li məhlulları hazırlanmışdır. Alınan duzun spektrindən açıq görünür ki, turşunu xarakterizə edən funksional qruplara məxsus olan valentlik və deformasiya göstəriciləri tamamilə yoxa çıxmışdır. Bu, turşunun karboksil qrupundakı hidrogen atomunun natrium ionu ilə tam əvəzlənməsi nəticəsində duz alınması baş verir.

Tədqiqat işində ilk olaraq həmişəyaşıl sərv bitkisinin toxumlarını laboratoriya şəraitində Petri çaşkasında cücərməsini öyrəndik. Təcrübə 15 noyabr 2016-cı il tarixindən başlayaraq aparılıb. Laboratoriyada temperatur 18-20°C olmuşdur. Belə ki, hər Petri çaşkasında 50 toxum olmuş, 1-ci qabdakı toxumun çəkisi 0,40 q, 2-ci qabdakı toxumun çəkisi 0,47 q, 3-cü qabdakı toxumun çəkisi 0,40 q olmuşdur. 1-ci və 2-ci Petri çaşkasındakı sərv toxumları üzvi turşunun suda həll olan Na duzunun müxtəlif faizli məhlullarında, 3-cü Petri çaşkasındakı bitki toxumları isə distillə suyunda 36 saat müddətində isladıldı.

Toxumlar üzərində aparılan müşahidələr göstərdi ki, toxumlarda əvvəlcə şişmə baş vermişdir, 36 saatdan sonra bitki toxumları analitik tərəzidə çəkildi. 1-ci Petri çaşkasındakı toxumların çəkisi 0,54 q, 2-ci Petri çaşkasındakı toxumların çəkisi 0,57 q, 3-cü Petri çaşkasındakı toxumların çəkisi isə 0,46 q olmuşdur.




**Şəkil 2.** Petri çaşkasında isladılmış Sərv toxumları (1 və 2-ci üzvi turşunun suda həll olan Na duzu, 3-cü nəzarət).




**Şəkil 3.** 20 dekabr 2016-cı il tarixdə çəkilmiş bitki cücərtiləri. Üzvi turşunun suda həll olan natrium duzunun (1-ci 0,0001% və 2-ci 0,001%) məhlulları, 3-ü qabda distillə suyunda isladılmış sərv toxumlarının cücərtisi.

Hər üç Petri çaşkasında (şəkil 2) isladılmış toxumlar plastik qablarda torfa əkilmiş və 06 dekabr 2016-cı il tarixindən cücərtilər müşahidə edilməyə başlanmışdır. 06 dekabr tarixində 1-ci plastik qabda 9 cücərti, 2-ci qabda 10, 3-cü qabda isə 10 cücərti olmuşdur.

Üzvi turşunun suda həll olan natrium duzunun (1-ci 0,0001% və 2-ci 0,001%) məhlulları, 3-cü qabda distillə suyunda isladılmış sərv toxumlarının cücərtisi.

Belə ki, 1-ci qabda olan cücərtilərin sayı 14 ədəd, hündürlüyü 4,5 sm, 2-ci qabda cücərtilərin sayı 12 ədəd, hündürlüyü 4,0 sm, 3-cü nəzarət variantında cücərtilərin sayı 14 ədəd, hündürlüyü 4,4 sm olmuşdur.

Üzvi turşunun suda həll olan Na duzunun 1-ci qabda olan 0,0001 %-li məhlulu 2-ci qabda olan 0,001% məhluluna nisbətən toxumların cücərmə sayına və hündürlüyünə daha yaxşı təsir göstərir.

## ƏDƏBİYYAT

**Məmmədov Q.Ş., Xəlilov M.** (2006) Ekologiya, ətraf mühit və insan. Bakı: Elm, s. 4

**Məmmədov Q.Ş.** (2007) Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: Elm, s. 5

**Məmmədov T.S.** (2010) Abşeronun ağac və kolları. Bakı: Elm və təhsil, 293 s.

**Галактионов С.Г.** (1988) Биологически активные вещество. М.: Молодая гвардия, с. 270.

### Влияние Стимуляторов На Семян Вечнозелёного Кипариса (*Cupressus Sempervirens* L.) Из Подсемейства Кипарисовых

**Т.С. Мамедов, Дж.Ш. Мамедов, С.Ф. Гаджиева, Р.А. Асадова**

*Институт дендрологии НАН Азербайджана*
*Институте Нефтехимических процессов имени Ю.Г.Мамедалиева*

В статье даются сведения о проведенных лабораторных опытах на влияние ростовых веществ (стимуляторов) развития семян кипариса синтезированных в Институте Нефтехимических процессов имени Ю.Г.Мамедалиева. При хранении семян кипариса перед посевом в течение 36 часов в слабом водном растворе синтезированных нами соединений, изучено их влияние на количество и рост всходов растении.

***Ключевые слова:*** *Кипарис, семян, стимулятор, развитие*

### The Effect Of Stimulants To Seeds Of Cypress Subfamily Evergreen Cypress (*Cupressus Sempervirens* L.)

**T.S.Mammadov, J.Sh. Mammadov, S.F. Hajiyeva, R.A. Asadova**

*İnstitute of Dendrology, Azerbaijan National Academy of Sciences*
*Y.G.Mamedaliyev Iinstitute of Petrochemical Processes, Azerbaijan National Academy of Sciences*

The article provides information about the experiments that is carried on the effect of growth substances (stimulants) to cypress seeds that is synthesized by us at the Y.G.Mamadalıyev Institute of Petrochemical Processes. After storing the seeds of cypress 36 hours in the weak aqueous solution of compounds that we synthesized, before planting the effect on the amount and height of seedlings is studied.

***Keywords:*** *Cypress, seed, stimulant, development*

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 71, №3, səh. 62-66 (2016)

# Рост И Развитие *Cycas Revoluta* Thunb. В Условиях Апшерона

**Ф.Н. Рустамова**

*Институт дендрологии НАН Азербайджана, пос. Мардакан, ул. С.Есенина 89, Баку AZ1044, Азербайджан; E-mail: fakhridakhanum@gmail.com*

**В данной статье даются сведения об интродукции, акклиматизации и изучении биологических особенностей *Cycas revoluta* Thunb. в условиях Апшерона. Этот вид является довольно крепким и устойчивым растением, он считается жаро- и морозоустойчивым. Учитывая это *Cycas revoluta* можно использовать как орнаментально лиственно-декоративное растение для светлых помещений, фойе, залов; а также является довольно простым растением для создания ландшафтно-архитектурных композиций в открытых условиях.**

***Ключевые слова:*** *Экзотические растения, интродукция, озеленение*

## ВВЕДЕНИЕ

Одной из основных задач научно-исследовательских работ, проводимой в Институте дендрологии НАН Азербайджана, является обогащение и пополнение Апшерона новыми видами декоративных древесно-кустарниковых растений. Качественное улучшение ассортимента древесно-кустарниковых пород, применяемых в озеленении, должно осуществляться, в основном, за счет интродукции новых видов экзотов, перспективных для выращивания в сухих субтропических условиях Апшерона.

В Институте дендрологии НАН Азербайджана на основе многолетних исследований были разработаны научные основы интродукции и акклиматизации растения, изучены биоэкологические особенности, эффективные методы размножения и агротехника выращивания, с целью обогащения озеленительного ассортимента Апшерона более устойчивыми и ценными видами и формами.

## МАТЕРИАЛ И МЕТОДИКА

Нами в 2013-2016 гг. в Институте Дендрологии НАНА в лаборатории «Ландшафтная архитектура» были интродуцированы некоторые новые виды экзотов, в том числе *Cycas revoluta* Thunb., которые обладали высокой декоративностью. Целью нашей работы является изучение роста и развития, зимо- и жароустойчивости этого вида в условиях

Апшерона. Были исследованы 5-ти летние растения данного вида. Мы проводили измерение прироста по высоте и диаметру каждые 10 дней. Рост был изучен по методике А.А.Молчанова, В.В.Смирнова (Молчанов, Смирнов, 1967.). Фенологические наблюдения проводили по методике ГБС РАН России (Бюлл. Глав. бот. Сада, 1979). Наблюдения проводились Институтом дендрологии в течение всего вегетационного периода по следующим фазам развития: набухание и распускание почек, начало распускание листьев, начало и окончание роста. Вегетативное размножение проводили согласно методике Л.С.Плотникова, Т.В.Хромовой (Плотникова, Хромова, 1981).

Как нам известно, что климат Апшеронского полуострова средиземноморского типа, характеризуется мягкой субтропической зимой, жарким продолжительным засушливым летом, ясной осенью и холодной весной. Средняя годовая температура составляет 14,5°С. Самые холодные месяца – со средней температурой воздуха +3,1°–5,5°С; самые жаркие месяцы (июль - август) – с максимальной температурой воздуха 38-39°С, а абсолютный минимум доходит до – 12° (январь), но низкая температура воздуха бывает очень редко и продолжается недолго (Рис. 1). Средним количеством осадков составляет 200 мм, выпадающих главным образом осенью (Рис. 2).




**Рис. 1**. Среднегодовая температура воздуха, °С.




**Рис. 2**. Среднегодовые осадки (мм).

Почвы Апшерона отнесены в основном к типу серых полупустынных, больше развиты сероземы. В прибрежном полюсе распространены песчаные, глинистые, солонцеватые почвы.

## РЕЗУЛЬТАТЫ И ИХ ОБСУЖДЕНИЕ

*Cycas revoluta* Thunb.– саговник (цукас) поникающий относится к семейству *Cycadaceae* L.A.S.Jonson, роду *Cycas* L. В роде 20 видов. Реликтовый вид, представитель древней флоры голосемянных растений, эндемик, имеет ограниченный естественный ареал произрастания. В природе произрастает на острове Рюкю и юге острова Кюсю (Япония). Встречается на высоте до 300 м на известковых скалах, крутых каменистых склонах, обрывах вдоль морского берега, предпочитает яркое солнце, но изредка растет в редколесье в тенистых местах (Royal Horticultural Society 2013).

Ствол колонновидный, короткий, до 3 м высоты, толстый, в диаметре 30-50 см (до 1 м); листья непарноперистые, 0,5-2 м длиной. Листочки многочисленные, густорасположенные, узколинейные, по краям слабо отогнутые назад, уменьшающиеся к основанию, кожистые, в молодости мохнато опушенные, затем голые, темнозеленые, глянцевитые, цельнокрайние, с острой вершиной, с одной средней жилкой (рис. 3).



**Рис. 3**. Общий вид Саговника поникающего в коллекции Института Дендрологии.




**Рис. 4**. Увеличения количества листьев растения в зависимости от возраста.

Институт Дендрологии НАН Азербайджана расположен в северо–восточной части Апшеронского полуострова, 4,5 км от берега Каспийского моря, известен как научный центр озеленения полупустынных районов не только Апшерона, но и всего Азербайджана.

Саговник–двудомное растение. Шишки мужские узкоцилиндрические, до 60 (80) см длиной и 15 см в диаметре в толстой части; тычинки многочисленные, плоско 3-гранные, на коротких ножках расширенные и утолщенные на вершине; пыльники на нижней стороне. Шишки женские рыхлые, с отвернутыми плодолистиками до 20 см длиной, рыжеватоопушенные, с расширенным стерильным концом, в средней части опушенного черешка 2-8 прямых семяпочек. Семена крупные, 3-5 см длиной, оранжевые (Manoj et al., 2011).

Этот вид был завезен в Институт дендрологии в 2013-ом году и данный момент выращивается в коллекциях института. В последние годы встречаются в озеленении Апшерона, также в новых парках и садах, у которых наблюдаются фазы цветения, но процесс плодоношения нами не наблюдалось (Мамедов, 2011).

Наши наблюдения показали, что в условиях Апшерона саговник поникающего растет очень медленно. При выращивании в открытых условиях нашей коллекции, за год он может вырасти до 3см и развить 1-3 группы листьев. Это биологическое свойство позволяет нам использовать саговника для бонсай.

В коллекциях Института дендрологии, в открытых условиях высота ствола растения *Cycas revoluta* Thunb. в 5-ти летнем возрасте достигает 20 см, диаметр его крона составляет 60-80 см, а диаметр корневой шейки 10 см. На верхушке несет розетку из более чем 24 наклоненных, перистых темно-зеленых листьев, длиной более 30-50 см (Рис. 4). Мы изучали увеличение количества листьев растения в зависимости от возраста и результаты исследований описали в диаграмме №3. В период с 2013 по 2016 гг. мы изучали процесс формирования листьев саговника поникающего в открытых условиях.

Наблюдения, проведенные в опытных участках Института Дендрологии, показали, что I год на верхушке ствола заметна вершина конусовидного образования – пучка молодых листьев, густо сжатых и плотно прикрытых твердыми чешуйками; через 7 месяцев было установлено, что конус пучка листьев заметно увеличился в объеме; кроющие кожистые листья стали выделяться верхушками и приняли полугоризонтальные положения.

Появление новых листьев мы наблюдали весной следующего года, после начала видимого роста верхушки ствола.

В зависимости от почвенно-климатических условий Апшерона конусообразная вершина увеличивается, которая наблюдается в конце марта - в начале апреля 2-го года.

В наших исследованиях появление листьев саговника поникающего осуществляется по следующей последовательности:

1) В середине апреля чешуйки, прикрывающие конус (пучок молодых листьев) начинают заметно расходиться, а конус слегка вытягиваться.

2) В середине мая чешуйки развернулись и стали видны бугорки зеленовато-бурого цвета. Молодые листья продолжают расходиться; в нижней части листьев выделяются листочки, в завитках, плотно закрученные, расположенные на расстоянии 0,5-1 см. Длина данного листа достигает 30-45 см, а ширина в серединной части составляет 6-8 см.

3) Интенсивный рост листьев продолжается до конца июня. Мы установили, что в этом периоде длина листьев достигает 50-60 см, ширина середина листа составляет 10-12 см. Листочки постепенно приобретают собственную форму. Листья непарноперистые; с каждой стороны рахиса по 75-80 листочков, густо расположенных; листочки в верхней и средней части листа 15-17 см длиной и 0,5-0,6 см шириной, в нижней – 9 см длиной, постепенно уменьшающиеся до 2 см; ниже листочков по 6-7 колючек с каждой стороны, ниже них черешок 3-5 см длиной, голый.

4) В конце июля листья приобретают нормальное положение (полную форму); листочки плотно кожистые, темно-зеленые, длиной 80-90 см.

Результаты наших наблюдений показали что, старые листья в течение 3–4 лет теряют декоративность и отмирают.

Известно, что саговник поникающий в основном, размножается вегетативно – отпрысками, которые формируются в нижней части ствола. Учитывая это, мы в опытных участках дендрария размножали саговник поникающего чаще всего вегетативным путем – укоренением молодых отростков. Для полного укоренения молодых отростков, мы перед посадкой подсушили их в течение суток и присыпали места срезов толченым углем. А затем посадили в специально приготовленную почвенную смесь.

Механический состав грунта, приготовленный нами был хорошо дренированным, поскольку мы подмешали в него больше песка или мелких камешков. Отпрыски были поса-

жены в специально приготовленный субстрат в оранжереях. Процесс вегетативного размножения проводились в основном в апреле. Спустя 3 месяца появляются новые листья.



**Рис. 5**. Размножение *Cycas revoluta* Thunb. молодыми отростками.

Растение *Cycas revoluta* Thunb. в условиях интродукции характеризовалось высокой степенью адаптации. В Апшероне летние месяцы саговник поникающий предпочитает жару. Учитывая, что в Апшеронском полуострове очень часто дует ветер «Хазри», вследствие этого страдают листья высокоствольного экземпляра *Cycas revoluta*. Он может выдержать и непродолжительные небольшие заморозки, но и при этом могут слегка пострадать его листья. В коллекционных участках Института Дендрологии не встречаются вредители и болезни исследуемого вида.

Таким образом, в условиях Апшерона цикас поникающий - довольно крепкое и устойчивое растение, он считается жаро- и морозоустойчивым, требователен к свету, влаге и минеральному питанию.

Наши исследования показали, что *Cycas revoluta* устойчив к почвенно-климатическим условиям Апшерона. *Cycas revoluta* можно использовать как орнаментально лиственно-декоративное растения для светлых помещений, фойе, залов для аранжировки. Также является довольно простым растением для выращивания как в помещении, так и на открытом воздухе в летнее время.

Учитывая биоэкологические свойства саговника, его можно использовать в ландшафтно-архитектурных композициях, для озеленения парков и садов города Баку, в сухих субтропических зонах Азербайджана.

## СПИСОК ЛИТЕРАТУРЫ


**Мамедов Т.С.** (2010) Деревья и кустарники Апшерона. Баку: Элм", 2010, 468 с.

**Молчанов А.А., Смирнов В.В.** (1967) Методика изучения прироста древесных растений. М.: Наука, 95 с.

**Методика фенологических наблюдений в ботанических садах СССР** (1973) *Бюлл. Глав. бот. Сада*, **вып. 113:** 3-8.

**Плотникова Л.С., Хромова Т.В.** (1981) Размножение растений черенкованием. М.: Наука, 54 с.

**"*Cycas revoluta*"** (2013) Royal Horticultural Society. Retrieved 22 July 2013.

**Manoj K.M., Archana P., Ajay S., Gautam K.S., Abhishek M.** (2011) Leaves of *Cycas revoluta*: Potent antimicrobial and antioxidant agent. *World Journal of Science and Technology*, **1(10):** 11-20.


**Cycas revoluta Thunb. Abşeron şəraitində bioekoloji xüsusiyətləri.**


**F.N. Rüstəmova**

*AMEA Dendrologiya İnstitutu*



Məqalədə Abşeron şəraitində Cycas revoluta Thunb. bioekoloji xüsusiyətlərinin öyrənilməsi, introduksiyası və iqlimləşdirilməsi haqqında məlumatlar verilir. Bu növ çox möhkəm, istiyə və soyuğa davamlı bitkidir. Bunu nəzərə alaraq Cycas revolute işıqlı otaqlarda, foyelərdə dekorativ yarpaqlı bitki kimi, açıq şəraitdə landşaft-memarlıq kompozisiyalarının yaradılması üçün istifadə etmək olar.



***Açar sözlər:*** *Ekzotik bitkilər, introduksiya, yaşıllaşdırma*

**Growth And Development Of *Cycas Revoluta* Thunb. In Apsheron Conditions**

**F.N. Rustamova**

*Institute of Dendrology, Azerbaijan National Academy of Sciences*

This article provides information about the introduction, acclimatization and study of the biological characteristics of Cycas revoluta Thunb. in Apsheron conditions. This species is quite strong and resistant plants, it is considered a heat- and frost-resistant. Given this Cycas revoluta can be used as ornamental deciduous, ornamental plant for light rooms, the lobby, halls; as well as the plant is fairly simple to create a landscape-architectural compositions in an outdoor setting.

***Keywords****: Exotic plants, introduction, planting*

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild. 71, № 3, səh. 67-75 (2016)

# AMEA Zoologiya İnstitutu

**E.F. Yusifov, E.İ. Əhmədov, A.R. Əliyev**

*AMEA Zoologiya İnstitutu, keçid 1128, məh. 504, Bakı AZ 1073, Azərbaycan*

**Məqalədə Zoologiya institutunun yaranma tarixi, onun 80 ildə keçdiyi yol, institut əməkdaşlarının apardıqları elmi tədqiqatların nəticələri, əsas elmi istiqamətləri və gələcək perspektivləri haqqında qısa məlumat verilir.**

Respublikamızın heyvanlar aləmi haqqında ilk məlumatlara qədim Yunan, Roma və Şərq səy-yahlarının (Herodot, Klavdi-Elian və b.), coğrafiyaşünasların (Əl-İstəhri, Rubruk, Taverniye, Oleari, X-XII əsrlər) əsərlərində, dahi Azərbaycan şairlərinin (Nizami, Füzüli və s.) poemalarında rast qəlmək olur. Azərbaycanın özünəməxsus zəngin heyvanlar aləmi bir çox təbiətşünasların və səyyahların tarixən diqqətini cəlb etmişdir. XX əsrin əvvəllərinə qədər Azərbaycan faunası müxtəlif vaxtlarda ölkəmizdə olmuş alimlər (S.Qmelin, Q.Radde, Q.Ber, O.Qrimm) və təbiətşünaslar tərəfindən öyrənilmişdir.

Azərbaycanın öz milli elmi kadrları və zooloji tədqiqatlar aparan xüsusi təşkilatları olmadığından, heyvanlar aləminin öyrənilməsi kiçik stansiya və laboratoriyalarda yerinə yetirilirdi. 1867-ci ildə Tiflisdə yaradılmış Qafqaz muzeyində Azərbaycanın faunası qismən tədqiq edilmiş, bir sıra gəmiricilərin, çəyirtkələrin və digər cücülərin kənd təsərrüfatında rolu müəyyənləşdirilmişdir. 1902-ci ildə Zurnabad taunla mübarizə stansiyası (Gəncə şəhəri yaxınlığında), 1912-ci ildə Bakı ixtioloji stansiyası, 1909-cu ildə Bakı, 1916-cı ildə isə Yelizavetpol - Zaqatala müvəqqəti entomoloji kabineti, 1916-cı ildə Bakı - Dağıstan bitki mühafızəsi bürosu, 1920-ci ildə isə Azərbaycan Dövlət Universitetində zoologiya kafedrası yaradılmışdır.

Azərbaycanın heyvanlar aləminin hərtərəfli, planauyğun, sistemli tədqiqi yalnız bu məqsədə xidmət edən elmi idarələrin və ali təhsil ocaqlarının geniş şəbəkəsinin yaradılmasından sonra mümkün olmuşdur.

1932-ci ildə SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan şöbəsinin tərkibində quru və su faunası seksiyalarından ibarət Zoologiya bölməsi yaradıldı və professor V.S.Yelpatyevski bölməyə rəhbər təyin edildi. Bölmə iki seksiyadan - Quru faunası seksiyası və Su faunası seksiyasından ibarət idi. Bölmənin katibi M.Ə.Əhmədov təyin edilmişdi. Həmin ilin noyabrında üçüncü seksiya - ev heyvanları seksiyası yaradıldı və ona rəhbərlik prof. İ.İ.Kaluginə tapşırıldı. Professor A.V.Boqaçovun rəhbərliyi ilə paleontologiya seksiyası yaratmaq nəzərdə tutulsa da bir sıra səbəblərdən bu seksiya yaradılmadı. Sonralar SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin Azərbaycan bölməsi heyvandarlıq üzrə öz təcrübə stansiyasının təşkilinə başlaya bilmədiyindən prof. İ.İ.Kalugin bölmədən getdi. Beləliklə, ev heyvanları seksiyasının işi yalnız boy və yaş nisbətini təyin etmək üçün ev heyvanlarının ölçülməsi üzrə materialların toplanması və təhlili ilə məhdudlaşırdı.

1933-cü ilin əvvəlində kadrları nəzərə almaqla, bölmənin Quru faunası seksiyasında professor V.S.Yelpatyevski bölməyə və seksiyaya ümumi rəhbərliklə yanaşı, Azərbaycan gənələri üzrə toplanmış materialların öyrənilməsi və eləcə də təbiəti mühafizə məsələləri ilə məşğul olurdu. A.V.Boqaçov böcəklər və digər həşərat qrupları üzrə, A.N.Arqiropulo respublikada məməlilərin, M.Ə.Əhmədov Azərbaycanın ornitofaunası üzrə materialların tədiqiqi ilə məşğul idi. Su faunası seksiyasında professor A.N.Derjavin Xəzərsahili boyunca yerləşən çayların ixtiofaunasını, Xəzər dənizi ali xərçənglərini, Ə.N.Əlizadə Abşeronun hidrofaunasını tədqiq edirdi. Sonralar zoologiya bölməsi üzrə «Azərbaycan SSR-in quru faunasının və su heyvanlarının xalq təsərrüfatının tələblərinə uyğun öyrənilməsi» istiqaməti üzrə elmi tədqiqat işləri planı qəbul edildi.

SSRİ EA Azərbaycan filialı Rəyasət heyətinin qərarı ilə (1936-cı il 27 fevral tarixli 2 saylı protokolu) 1936-cı il martın 1-də Zoologiya bölməsi bazasında Zoologiya institutu təşkil olunandan sonra bölmənin quruluşunda, elmi işçilərin ştatında və fəaliyyətinin əsas istiqamətlərində böyük dəyişikliklər baş verdi.

Zoologiya institutu yaradıldığı ildə iki şöbədən quru heyvanları və su heyvanları şöbələrindən ibarət idi. V.S.Yelpatyevski institutun direktoru (1936-1938) və quru onurğalı heyvanları şöbəsinin rəhbəri, professor S.M.Qubin direktor müavini, professor A.N.Derjavin su heyvanları şöbəsinin rəhbəri təyin edildi. İlk vaxtlarda institutun quru və su heyvanları şöbələrində entomologiya, teriologiya, ornitologiya, ixtiologiya və hidrobiologiya sahələrində tədqiqatlar aparılırdı.

1939-cu ildən 1950-ci ilə qədər instituta b.e.n. Ə.Əlizadə, 1950-1960-cı illərdə akademik S.Əsədov, 1960-cı ilin mart ayından 2011-ci ilədək – akademik M.Musayev, 2011-ci idən 2016-cı ilin mart ayınadək, AMEA-nın müxbir üzvü İ.X.Ələkbərov

rəhbərlik etmiş, hazırda isə instituta f.ü.f.d., dosent E.F.Yusifov rəhbərlik edir.

1939-cu ildə institutun ştatında 24 nəfər, o cümlədən 12 elmi işçi, 1950-ci ildə 6 şöbədə (parazitologiya, helmintologiya, su heyvanları, entomologiya, quru onurğalı heyvanları, kənd təsərrüfatı heyvanlarının genetika və seleksi-yası) 44 əməkdaş, o cümlədən 25 elmi işçi çalışırdı. Bunlardan 1 nəfəri elmlər doktoru, 11-i biologiya elmləri namizədi, baş elmi işçi, 2-si kiçik elmi işçi, biologiya elmləri namizədi, 11 nəfəri dərəcəsiz kiçik elmi işçi idi.

Hazırda institutda elmi-tədqiqat işlərinin yerinə yetirilməsində iştirak edən 108 nəfər elmi işçidən biri akademiyanın həqiqi üzvü, biri akademiyanın müxbir üzvü, 13-ü elmlər doktoru, 49-u isə fəlsəfə doktorudur. İnstitutun kadrlarının 40%-dən çoxunu gənclər təşkil edir.

İnstitut yaradıldığı ilk illərdə yüksək ixtisaslı kadrların kifayət qədər olmaması aspirantura məsələsini kəskin şəkildə qarşıya qoyurdu. 1939-cu ildə instituta 5, 1940-cı ildə isə 3 aspirant qəbul edildi. Azərbaycan zooloqları keçmiş Sovetlər İttifaqının görkəmli alimlərinin – akademik Y.N.Pavlovski, K.İ.Skryabin, B.Y.Bıxovski, M.S.Qilyarov, V.Y.Sokolov, müxbir üzvlər - Q.V.Nikolski, V.A.Doqel, K.M.Rıjikov, Q.Q.Vinberq, Y.İ.Polyanski, O.A.Skarlato və digərlərinin Milli zooloq kadrlarının hazırlanmasında göstərdikləri misilsiz köməyi yüksək qiymətləndirirlər.

1941-ci ildə Böyük Vətən müharibəsi başlanandan sonra institutun əvvəl yerinə yetirdiyi bir sıra mövzular plandan çıxarılaraq müdafiə əhəmiyyətli mövzularla əvəz edilmişdi.

1943-cü ildə institutda Kənd təsərrüfatı heyvanlarının genetikası və seleksiyası şöbəsi açılır. Şöbənin tərkibində Heyvanların embriologiyası, sitogenetikası və morfologiyası laboratoriyası fəaliyyət göstərir. Şöbənin qarşısında yerli az məhsuldar cinslərin başqa respublikalardan gətirilimiş zərifyunlu qoçlarla mələzləşdirilməsi nəticəsində yeni zərifyunlu, yağlıquyruq cins yaratmaq qoyulmuşdur. Sonradan aparılan tədqiqat işlərinin istiqamətinə uyğun olaraq şöbənin adı Heyvanların morfologiya və genetikası laboratoriyası adlandırılır. 1968-ci ildə bu laboratoriyaının tərkibindən bir qrup mütəxəssis ayrılaraq Kariosistematika adlandırılan müstəqil laboratoriya kimi fəaliyyət göstərir. Həmin vaxtdan Heyvanların morfologiyası və genetikası laboratoriyası, Heyvanların müqayisəli morfologiyası laboratoriyası adlandırılır. Şöbədə üzun müddət embrioloji istiqamətdə aparılan tədqiqat işləri 1972-ci ildə müstəqil Heyvanların embriologiyası laboratoriyasının açılmasına səbəb olur.



***Heyvanların embriologiyası laboratoriyasının əməkdaşları tədqiqat zamanı.***

Müharibədən sonrakı beşillikdə (1946-1950) institut insan və heyvan parazitləri; Azərbaycanda kənd təsərrüfatı bitkilərinin qorunması və məhsuldarlığının artırılması, Mingəçevir su anbarının tikilməsi ilə əlaqədar Kür çayı balıq təsərrüfatının bərpası, dənizin səviyyəsinin qalxıb-enməsi ilə əlaqədar Xəzərin faunası, Kürsahili ovalığının müasir faunası, ovçuluq təsərrüfatının bərpası, kənd təsərrüfatı heyvanlarının məhsuldarlığının artırılması problemləri üzərində işləyirdi.



***Soldan: Ə.Qasımov, Z. Quliyev və Y.Əbdürrəhmanov.***

Sonrakı illərdə institutun strukturunda yeni dəyişikliklər edildi. Mingəçevir və Varvara su anbarlarının hidrofaunasının tədqiqi məqsədilə 1953-cü ildə "Mingəçevir dayaq bazası" yaradılır (bu baza sonralar Su anbarlarının biologiyası laboratoriyasına çevrildi).

1957-ci ildə təşkil edilən "Protistologiya" laboratoriyasında yeni istiqamətdə, təsərrüfat baxımından əhəmiyyətli ibtidailərin növ tərkibi, həyat tərzi və parazit-sahib münasibətlərinin tədqiqi üzrə işlərin aparlmasına başlanıldı.



*Akademik M.Ə. Musayevin rəhbərliyi altında Protistologiya laboratoriyası əməkdaşları tədqiqat zamanı*

1957-ci ildə "Protistologiya" laboratoriyası tərkibində gənələri öyrənən grup yaradılır. Daha sonra bu qrup 1968 ildə "Araxnologiya" laboratoriyasına çevrilir.

İxtioloji və hidrobioloji tədqiqatların sonrakı inkişafı nəticəsində 1974-cü ildə Zoologiya institutunun tərkibində "Xəzər bioloji stansiyası" təşkil edilmiş və bu zaman yeni laboratoriyalar - "Bioloji təbəqə" və "Balıq ehtiyatlarının artırılması" laboratoriyaları yaradılmışdı.

İnstitutun ilk laboratoriyalarından olan Entomologiya laboratoriyası 1932-ci ildən SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin zoologiya bölməsinin yarandığı vaxtdan şöbə kimi fəaliyyət göstərir. 1956-cı ildən "Entomologiya" şöbəsi "Entomologiya" labora-toriyası adlandırılır. 1960-cı ildə entomofaqların öyrənilməsi ilə məşğul olan "Entomofaqlar və bioloji mübarizənin nəzəri əsasları" adlı sərbəst laboratoriya yaradılır. 1968-ci ildən "Entomologiya" laboratoriya-sının nəzdində olan "Eksperimental entomologiya" qrupu 1971-ci ildən "Həşəratların ekologiyası və fiziologiyası" laboratoriyası kimi sərbəst fəaliyyətə başlamışdır. Entomologiyanın yeni istiqamətini inkişaf etdirmək üçün 1974-cü ildə "Faydalı həşəratların introduksiyası və iqlimləşdirilməsi" laboratoriyası təşkil edilir. 1979-cu ildə "Pambıq sovkasınm inkişaf biologiyası" laboratoriyası yaradılır. 2008-ci ildən şöbənin adı "Entomologiya" qalsa da laboratoriyanın adı dəyişdirilərək "Cücülərin fauna və sistematikası" adlandırıldı.

İnstitutun ilk laboratoriyalarından biri də Quru onurğalıları laboratoriyasıdır. Respublikamızda quru onurğalıları zoologiyası sahəsində tədqiqatlar 1932-ci ildə zoologiya bölməsinin yaradılması ilə bağlıdır. 1970-ci ilə qədər Zoologiya institutunda Quru onurğalıları laboratoriyası fəaliyyət göstərmişdir. 1971-ci ildə tərkibində Ornitologiya laboratoriyası, Teriologiya və Herpetologiya laboratoriyaları olan Quru onurğalılar şöbəsi yaradılır, 1985-ci ildə şöbənin tərkibində müstəqil Herpetologiya laboratoriyası yaradılmışdır.



*Entomoloqlar tədqiqat zamanı.*

1976-cı ildə Zoologiya institutunun tərkibində inteqrirləşdirilmiş bitki mühafizəsi sistemində müxtəlif bioloji fəal maddə qruplarından istifadə yollarını işləyib hazırlamaq, elmi işçiləri informasiya ilə təmin etmək, ixtiraçılığı qüvvətləndirmək və elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata tətbiqini təşkil etmək məqsədilə "İxtiraçılıq, patent, elmi informasiya və tətbiq" şöbəsi yaradılır. Hazırda bu şöbə İnformasiya və innovasiya şöbəsi adı altında fəaliyyət göstərir.

1985-ci ildə Protistologiya laboratoriyası-nın əsasında Protozoologiya şöbəsi yaradılmış və onun tərkibində Protistologiya və Parazit-sahib münasibətlərinin biokimyəvi əsasları laboratoriyaları təşkil edilmişdi.

2001-2005-ci illərdə zoologiya elminin müasir dövrdə inkişafını təmin etmək üçün 1 istiqamət (Azərbaycan və həmsərhəd ərazilərdə heyvanlar aləminin öyrənilməsi, qorunması və səmərəli istifadəsi) və 5 problem (1. Azərbaycanda ibtidailərin (*Protozoa*) biologiyası, ekologiyası, biokimyəvi xüsusiyyətləri və təsərrüfat əhəmiyyəti; 2. Parazitlərin ekologiyası, taksonomiyası, həyat dövriyyəsi və sahiblərlə münasibətlərinin mexanizmi; 3. Onurğasızların faunası, ekologiyası, biologiyası, fiziologiyası, introdksiyası və mübarizə üsullarının elmi əsasları; 4. Antropogen təsirlər şəraitində Azərbaycanda quru onurğalılarının bioloji xüsusiyyətləri və dinamikası; 5. Xəzər dənizi və Kür çayı hövzələrinin ekologiyası, balıq və yem orqanizmlərinin ehtiyyatları, onlara dəniz səviyyəsinin dəyişməsi və çirklənməsinin təsiri) üzrə elmi tədqiqat işləri aparılmışdır.

2003-cü ildə institutun elmi-tədqiqat planları bir qədər dəyişikliyə uğramış, 1 istiqamət (Azərbaycanda flora, fauna və torpaq örtüyünün biomüxtəlifliyinin öyrənilməsi, genofondunun qorunması və səmərəli istifadəsi), 2 problem (1. Azərbay-

can və həmsərhəd ərazilərdə heyvanlar aləminin öyrənilməsi, qorunması və səmərəli istifadəsi; 2. Xəzərin ekologiyası və bioloji sərvətlərinin bərpasının elmi əsasları), 10 mövzu üzrə tədqiqat işləri yerinə yetirilmişdir.

2006-2010-cu illər üçün 1 istiqamət (Azərbaycanda flora, fauna, mikroorqanizm-lərin və torpaq örtüyünün biomüxtəlifliynin öyrənilməsi, genofondunun qorunması və səmərəli istifadəsi) 3 problem (1.Parazitar xəstəliklərin törədicilərinin faunası, növdaxili dəyişgənliyi, ekologiyası və parazit-sahib sisteminin qarşılıqlı əlaqələri; 2. Azərbaycanın quru ərazilərində yaşayan heyvanların biomüxtəlifliyinin öyrənilməsi, genofondunun qiymətləndirilməsi, faydalı növlərin çoxaldılma texnologiyalarının hazırlanması və səmərəli istifadəsi; 3. Torpaq və su biotoplarında yaşayan heyvanların növ tərkibi, ekoloji xüsusiyyətləri, təsərrüfat əhəmiyyətli növlərin çoxaldılma texnologiyasının elmi əsaslarının hazırlanması) 10 mövzu, 40 iş, 2011-2016-cı illər üçün İnstitutda 1 istiqamət (Azərbaycanda flora, fauna və torpaq örtüyünün biomüxtəlifliyinin öyrənilməsi, genofondun qorunması və səmərəli istifadəsi), 3 problem (1.Parazitar xəstəlik törədiçilərinin biomüxtəlifliyinin, növdaxili dəyişkənliyinin, ekoloji xüsusiyyətlərinin öyrənilməsi və parazit-sahib sisteminin qarşılıqlı əlaqələrinin müəyyən edilməsi. 2. Azərbaycanın quru ərazilərində yaşayan heyvanların biomüxtəlifliyinə təsir edən ekoloji amillərin öyrənilməsi, genofondunun qiymətləndirilməsi, faydalı növlərin çoxaldılma yollarının elmi əsaslarla araşdırılması və səmərəli istifadəsi. 3. Torpaq və su biotoplarında yaşayan heyvanların biomüxtəlifliyi, ekoloji xüsusiyyətləri, təsərrüfat əhəmiyyətli növlərin çoxaldılma yollarının elmi əsaslarla işlənib hazırlanması və səmərəli istifadəsi, 11 mövzu və 42 işi əhatə edən elmi tədqiqat işləri planlaşdırılaraq müvəffəqiyətlə yerinə yetirilmişdir.

Zoologiya İnstitutunda aparılan çoxillik tədqiqatlar nəticəsində Azərbaycanın heyvanlar aləminin növ tərkibi öyrənilmiş, 2000 növdən artıq sərbəstyaşayan və parazit ibtidai, insanlarda və heyvanlarda parazitlik edən 1500 növdən çox helmint, 400 növdən artıq fitohelmint, 290 növə qədər rotatori, 360 növdən çox xərçəngkimilər, təqribən 25 min növ həşərat, 1200 növdən artıq hörümçəkkimilər, 181 növ molyusk, 101 növ balıq, 11 növ suda - quruda yaşayan, 54 növ sürünən, 370 növ quş, 113 növ məməli heyvan (o cümlədən 13 növ cücüyeyən, 33 növ yarasa, 37 növ gəmirici, 2 növ dovşankimi, 19 növ yırtıcı, 8 növ cütdırnaqlı və 1 növ kürəkayaqlı) müəyyən edilmişdir.

Tədqiqatların nəticələrinə əsasən Azərbay-

canın «Qırmızı kitabı»nın II nəşrinə, nəsli kəsilməkdə və təhlükə altında olmaqla, qorunmasına ehtiyac yaranan 213 növ heyvan daxil edilmişdir.

Bunların içərisində respublikamızın hidrofaunasına mənsub olan heyvanlardan 4 növ, Buğumayaqlılar (*Arthrapoda*) tipindən olan, Həşarat (*Insecta*) sinfinin Dəvədəlləklər (*Mantoptera*) dəstəsindən 1 növ, Torqanadlılar (*Neuroptera*) dəstəsindən 1 növ, Yarımsərtqanadlılar (*Hemiptera*) dəstəsindən 5 növ, Sərtqanadlılar (*Coleoptera*) dəstəsindən 16 növ, Pulcuqqanadlılar və ya kəpənəklər (*Lepidoptera*) dəstəsindən 53 növ, Zarqanadlılar (*Hymenoptera*) dəstəsindən isə 6 növ olmuşdur. Balıqların (*Pisces*) 10 növü, Suda-quruda (*Amphibia*) yaşayanların 6 növü, Sürünənlərin (*Reptilia*) 14 növü, Quşların (*Aves*) 61 növü, Məməlilərin (*Mamalia*) isə 36 növü Azərbaycanın «Qırmızı Kitabı»na daxil edilmişdir.

Zooloqların çoxillik mühüm araşdırma-larının nəticəsi olan 3-cildlik "Azərbaycanın heyvanlar aləmi" əsəri rus (1995-2002) və azərbaycan dilində (2002-2004) nəşr olunmuşdur. Burada Azərbaycanın onurğasız və onurğalı heyvanlarının sistematik vəziyyəti, respublikanın təbii vilayət və landşaftlarında yayılma xüsusiyyətləri, say dinamikası, faunanın fon dəyişikliyi meylləri, ekologiya və etimologiyanın müxtəlif tərəfləri haqqında məlumatlar ümumiləşdirilmişdir.

İnstitutda aparıcı alimlər tərəfindən müxtəlif sahələr üzrə elmi məktəblər formalaşmışdır. Akademik M.Musayev tərəfindən yaradılmış Protozoologiya elmi məktəbi Azərbaycanda sərbəstyaşayan birhüceyrəlilərin, çöl və ev heyvanlarında parazitlik edən, protozoy xəstəliklərin törədicilərinin faunasının, bioloji və ekoloji xüsusiyyətlərinin, parazit-sahib münasibətlərinin formalaşması qanunauyğunluqlarının tədqiqi ilə məşğuldur.

Protozooloq alimlər tərəfindən gəmiricilərin koksidi faunası öyrənilmiş və bu heyvanlardan elm üçün yeni parazit növləri təsvir edilmişdir. Bu növlərin mövcudluğu beynəlxalq elm aləmində dəstəklənmiş, çap olunmuş monoqrafiya və məqalələrdə öz əksini tapmış,beynəlxalq kataloqlara daxil edilmişdir (ABŞ, Macarıstan).

Aparılan ekoloji-faunistik tədqiqatlar nəticəsində vəhşi heyvanlarda və quşlarda parazitlik edən eimerialaın, sarkosporidilərin, kriptosporidilərin növ tərkibi, sahiblərə görə spesifikliyi, ekoloji amillərin parazit-sahib sisteminə təsiri, invaziyaların yayılma yolları müəyyənləşdirilmiş, kənd təsərrüfatı heyvanları və insanların toksoplazmozları arasındakı əlaqə, ev heyvanları və quşların, sürünənlərin, balıqların və suda-quruda yaşayanların qan parazitləri, balıqlarda parazitlik edən ibtidailər  və b. problemlər geniş tədqiq olunmuşdur.

Kənd təsərrüfatı heyvanlarının və quşların eimeriozlarının diaqnostikası, profilaktikası və ara-

dan qaldırılması üzrə 30-a qədər praktiki tədbir və təlimat hazırlanaraq fundamental tədqiqatların praktiki nəticələri kimi tədbiq üçün təsərrüfatlara təqdim olunmuşdur.

İnstitutda akademik M.Ə.Musayevin təşəbbüsü ilə "Parazit-sahib" münasibətlərinin biokimyəvi, sitokimyəvi və immunoloji əsaslarını öyrənən yeni bir elmi istiqaməti yaradılmışdır.

Protozooloqlar tərəfindən parazit birhüceyrəlilərlə yanaşı, sərbəstyaşayan ibtidailərin öyrənilməsi sahəsində də geniş tədqiqat işləri aparılmışdır. Azərbaycanın Şirvan düzünün boz torpaqlarında 51, Qarabağ bölgəsinin şabalıdı və dağ-meşə torpaqlarında 67, respublikanın rütubətli Lənkəran təbii vilayətində bitkilərin rizosferasında 91, Abşeron yarımadasının üzüm tənəkləri yetişdirilən boz-qonur torpaqlarında 79 növ ibtidai heyvan qeydə alınmış, onların yayılmasının biotik və abiotik amillərdən asılılığı müəyyənləşdirilmişdir. Xəzər dənizində, Azərbaycanın şirin sularında, torpaqda 900-ə qədər birhüceyrəli heyvanın yaşadığı müəyyən edilmiş, Xəzər dənizində tapılan 450 növdən çox infuzorlardan 1 cins və 22 növü elm üçün ilk dəfə təsvir olunmuşdur.

Çaylarda, göllərdə və axmazlarda qeydə alınan 600-dən artıq sərbəstyaşayan 180 növ infuzor və çanaqlı amöb elm üçün ilk dəfə təsvir olunmuşdur. Sərbəstyaşayan ibtidailərin növ tərkibi ilə yanaşı, onların ekologiyası, yayılma qanunauyğunluqları, növ və say dinamikasına təsir edən amillər öyrənilmiş, neft və neft məhsulları, insektisidlər və s. vasitələrlə çirklənmənin qiymətləndirilməsində ibtidailərdən bioindikator kimi istifadə edilmə üsulları hazırlanmışdır.

Heyvan və quşların helmint faunası və sistematikasının öyrənilməsinə XX əsrin 30-cu illərindən başlanmış və respublikamızda helmintologiya məktəbinin formalaşmasında akademik S.Əsədov və prof. H.Qasımovun böyük xidmətləri olmuşdur. Bu sahə inkişaf etdikcə, onun yeni istiqamətləri – ekoloji helmintologiya (akademik S.Əsədov, akademiyanın müxbir üzvü İ.Sadıqov), baytarlıq helmintologiyası (akademik Y.Hacıyev), su heyvanlarının parazitləri (prof. T.Mikayılov), helmintlərin biologiya və sistematikası (akademiyanın müxbir üzvü N.Feyzullayev) yaranmışdır.

Şirin su hövzələrinin balıqlarında 300 növdən artıq helmintin parazitlik etdiyi müəyyənləşdirilmiş, elm üçün yeni 2 cins və 25 növ təsvir edilmişdir. Xəzər dənizi balıqlarında müxtəlif təsnifat qruplarına aid olan 371 növ parazitin yayıldığı müəyyənləşdirilmişdir ki, onlardan da 3-ü elm üçün ilk dəfə təsvir olunmuşdur.



***Su heyvanlarının parazitləri laboratoriyasının əməkdaşları professor T.Mikaylovun rəhbərliyi altında tədqiqat zamanı.***

Su heyvanlarının əsas parazitlərinin morfologiyası, sistematikası, biologiyası öyrənilmiş, bəzi heyvanların parazit faunasının xarici mühit amillərindən, ekoloji dəyişikliklərdən, sahib orqanizmin fizioloji vəziyyətindən asılılığı, parazitlərin əsas və aralıq sahiblərlə trofik və topik əlaqələri, onların patoloji təsiri müəyyənləşdirilmişdir. Xəzər dənizi, Kür çayı, Mingəçevir su anbarı, kiçik çay və göllərdə, yeni yaradılmış Şəmkir və Yenikənd su hövzələrində balıqların parazit faunasının formalaşma xüsusiyyətləri müəyyənləşdirilmiş, respublikanın su hövzələrində iqlimləşdirilmiş balıqların parazit faunasının ekoloji-zoocoğrafi analizi aparılmış və formalaşması nəzəri cəhətdən əsaslandırılmışdır. Antihelmintoz preparatların balıq parazitlərinin ultrastrukturuna və metabolizminə təsiri öyrənilmiş, daha təhlükəli parazitlərə qarşı profilaktik tədbirlər hazırlanıb tədbiq üçün təsərrüfatlara verilmişdir.

Azərbaycanda yaşayan ev və vəhşi quşların helmintləri, onların təbii zonalar və şaquli qurşaqlar üzrə yayılması, helmint faunasının quşların həyat tərzindən, miqrasiyasından, qidasından, ilin fəsillərindən, zoocoğrafı amillərdən asılılığı ətraflı öyrənilmiş, elm üçün yeni 1 fəsilə, 2 cins və 13 növ təsvir edilmiş, 10 növün həyat dövrü, 5 növün isə xromosom dəsti dəqiqləşdirilmişdir. Helmintlərin bəzi taksonları təftiş edilmiş, yaşayış şəraitindən asılı olaraq parazitlərin divergensiyası, "əkiz növlərin", trematodlarda diri bala doğmanın yaranma səbəbləri, açıq və örtülü bədən boşluqlarında yaşayan helmintlərdə cinsi məhsulların xaricolma yolları, parazitlər arasında antoqonizm məsələləri araşdırılmışdır. Bitkilərdə parazitlik edən 400-dən çox nematodun 95 növünün patogen olduğu müəyyənləşdirilmişdir.



***Helmintologiya laboratoriyasının əməkdaşları professor İ.Sadıqovun rəhbərliyi altında tədqiqat zamanı***

Məməlilərin helmint faunası, helmintlərin yayılmasının ekoloji landşaft zonalardan asılılığı, helmintozların yayılma yolları, xarici mühit amillərinin parazitlərin yetkin və sürfə mərhələlərinə təsiri öyrənilmiş, insan və ev heyvanları helmintozlarının təbii ocaqlılığı aşkar edilmiş, elm üçün yeni 22 növ helmint təsvir olunmuşdur.

Respublikanın akaroid faunasına aid 1100 növ müəyyənləşdirilmiş, ev heyvanlarında, gəmiricilərdə, quşlarda, yarasalarda, sürünənlərdə parazitlik edən iksodid, qamazid, qırmızıbədən gənələr, kənd təsərrüfatı bitkilərinin zərərvericiləri, heyvanların ektoparazit faunası və faydalı gənələr öyrənilmişdir. Bunlardan 46 növü elm üçün ilk dəfə təsvir edilmişdir.

Entomoloji tədqiqatlar nəticəsində Azərbaycan ərazisində 28 dəstəyə mənsub 25 minə yaxın həşərat növü qeydə alınmışdır. Onlardan 120-si elm üçün ilk dəfə təsvir edilmişdir. Həşəratların fauna və ekologiyasına həsr olunmuş 30-dan çox kitab, elmi-kütləvi əsər və monoqrafiya yazılaraq nəşr edilmişdir.

Bioloji mübarizədə istifadə məqsədilə 2500-ə yaxın faydalı həşərat növü aşkar edilmiş, perspektiv növlərin bioekoloji xüsusiyyətləri, parazit-sahib münasibətləri, sahibi yoluxdurma dərəcəsi araşdırılmış, pambıq sovkasına qarşı *Bracon hebetor* parazitinin laboratoriya şəraitində texnoloji çoxaldılması, iki növ qızılgözün sorucu zərərvericilərə qarşı istifadə edilməsi üçün kütləvi surətdə çoxaldılmasının elmi əsasları hazırlanmışdır.

Böyük və Kiçik Qafqazın su tutarlarının, Kürətrafı göllərin plankton və bentik onurğasız heyvanları, Xəzər dənizi və Kür çayında yaşayan balıqların bioloji xüsusiyyətləri, morfologiyası, ekologiyası, su hövzələri üzrə yayılması öyrənilmiş, ehtiyatları hərtərəfli tədqiq edilmiş, balıq ehtiyatlarının artırılması sahəsində əməli təkliflər və Xəzər qızıl balıqlarının artırılması metodları hazırlanmışdır.

Xəzər dənizində və Azərbaycanın şirinsu hövzələrində onurğasız heyvanlar və balıq faunası öyrənilmiş, tədqiqatların nəticələri 40-dan çox monoqrafiya və kitablarda əks olunmuşdur. Mingəçevir və Varvara su anbarlarının bentik faunası və zooplanktonu tədqiq olunmuş, Azərbaycanın göllərində və su anbarlarında balıq ehtiyatlarının artırılması və ovlanması üzrə hazırlanmış təkliflər müvafıq təşkilatlar tərəfindən qəbul olunaraq həyata keçirilir.

Ornitoloqlar tərəfindən Azərbaycan ərazisində quşların növ tərkibi, sayı müəyyənləşdirilmiş, ekosistemlərdə paylanması, biologiyası, ekologiyası, etiologiyası, biosenozlarda rolu araşdırılmış, ornitofaunanın əsasını təşkil edən oturaq, yuvalayan, qışlayan və köçəri quşların zoocoğrafıyası, mövsümü və sutkalıq fəallığı, toplanma yerləri, biotik əlaqələri, təsərrüfat, ov və sənaye əhəmiyyəti, ornitokomplekslərin oxşar və fərqli cəhətləri araşdırılmış, toyuqkimi quşların köçürülmə üsulları və süni şəraitdə çoxaldılma texnologiyası işlənmiş, quşların və onların yaşayış yerlərinin qorunmasına aid tədbirlər hazırlanmışdır. Nadir və nəsli kəsilməkdə olan quşların akustik siqnal sistemi və akustik stimulyasiya yolları öyrənilmişdir.

Məməlilərin öyrənilməsi üzrə işlər aparılmış, onun ovunun tənzimlənməsinə aid tövsiyyələr hazırlanmış, xəzdərili heyvanlar və yırtıcılar tədqiq edilmiş, saylarının tənzimlənməsi və nəsli kəsilmək təhlükəsi olanların qorunma tədbirləri hazırlanmış, təsərrüfatlara ciddi zərər vuran, transmissiv xəstəliklərin keçiricilərinin ekologiyası, morfologiyası, yayılması və say dinamikası öyrənilmiş, onlara qarşı kompleks mübarizə tədbirləri hazırlanmışdır.

Yarasaların respublikada yayılma qanunauyğunluqları, landşaftlarda sıxlığı, demoqrafıyası, miqrasiyası, ekologiyası və biosenozlarda əhəmiyyəti araşdırılmışdır.

Azərbaycan və həmsərhəd ərazilərdə nadir və nəsli kəsilmək təhlükəsi olan cütdırnaqlılar (cüyür, ceyran, köpgər, əlik, muflon, bezoar və qaya keçiləri) və yırtıcılar faunası (bəbir, vaşaq) öyrənilmişdir.

Respublikada suda - quruda yaşayanların və sürünənlərin növ tərkibi dəqiqləşdirilmiş, əsas yayılma yerləri, biologiya və ekologiyası araşdırılmış, populyasiyalarının say və sıxlığı, quruluşu öyrənilmiş, aralıq dəniz (*Testudo gracea*) tısbağasının volyer şəraitində çoxaldılma texnologiyası hazırlanmış, zəhərli ilanların təbii ehtiyatları müəyyən edilmişdir.

Azərbaycan zooloqlarının heyvanlar aləminin fauna, biologiya, ekologiya, sistematika, təsərrüfat əhəmiyyəti, qorunması, çoxaldılma texnologiyası, parazitar xəstəliklərin öyrənilməsinə həsr edilmiş tədqiqatlarının nəticələri 200-ə yaxın monoqrafıya, kitab və minlərlə məqalələrdə öz əksini tapmışdır.

İnstitutunun fəaliyyəti dövründə bir sıra görkəmli alimlər Elmlər Akademiyasının həqiqi

(A.N.Derjavin, F.Ə.Məlikov, M.Ə.Musayev, S.M.Əsədov, S.V.Əliyev) və müxbir üzvləri (Y.Ə.Əbdürəhmanov, N.H.Səmədov, Ə.H.Qasımov, N.A.Feyzullayev, İ.Ə.Sadıqov, Y.Y.Yolçiyev, İ.X.Ələkbərov) seçilmiş, 3 nəfər Əməkdar elm xadimi (M.Ə.Musayev, A.N.Derjavin, L.M.Rzayeva), 2 nəfər Qırmızı əmək bayrağı ordeni (H.S.Qasımov, M.Ə. Musayev), 1 nəfər Şərəf nişanı ordeni (M.Ə.Musayev), 3 nəfər Şöhrət ordeni (Y.Ə.Əbdürrəhmanov, M.Ə.Musayev, Y.Y. Yolçiyev), 2 nəfər Azərbaycan Dövlət Mükafatı laureatı (M.Ə.Musayev, T.K.Mikayılov İ.Ə.Sadıgov), 2 nəfər Tərəqqi medalı (T.K.Mikayılov, N.B.Mirzəyeva) ilə təltif edilmiş, 1 nəfər SSRİ Xalq Təsərrüfatı Naliyyətləri sərgisinin gümüş (A.Ə.Abidinbəyova), 2 nəfər isə bürünc medallarına (S.M.Əsədov, B.Ə.Əhmədov) layiq görülmüşdür.

AMEA Zoologiya institutunda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını əsas tutaraq biomüxtəlifliyin qorunması, kənd təsərrüfatı bitkilərinin bioloji mühafizəsinin elmi-praktiki əsaslarının hazırlanması, zərərvericilərin sayının bioloji üsullarla tənzimlənməsi məqsədilə mültidisiplinar tədqiqatların aparılması qarşıya hədəf qoyulmuşdur.

2016-cı ilin yay aylarında uzun müddət fasilədn sonra AMEA Zoologiya İnstitutunun əməkdaşlarının Quba rayonunun Xaşı kəndinə kollektiv ekspedisiyası təşkil edilmişdir.

Ekspedisiyanın nəticəsi olaraq 7 fəsiləyə, 13 cinsə aid 14 növ hörümçək, torpaq nümunələrində *Paramecium caudatum, P.aurelia, Colpodacuculus, C.inflata* infuzor növləri, *Arcella vulgaris* Ehrenberg, 1830 çanaqlı amöbü, Anystidae fəsiləsinə aid *Bechsteinia schneideri* Oudemans, 1936 yırtıcı aktinedid gənə aşkar edilib. İlk dəfə Cənubi Qafqaz dırmaşan təlxəsi, naxışlı quru qurbağası (*Bufotes variabilis),* həşəratyeyənlərdən 1 fərd ağdiş, 2 növ yarasa, 5 fəsiləyə mənsub 14 növ kəpənək tapılmışdır.

2017-2020-ci illər üçün Zoologiya institutunda 1 istiqamət (Azərbaycanda fauna müxtəlifliyinin öyrənilməsi, genofondun qorunması və səmərəli istifadəsi) və 3 problem (1.Azərbaycanda sərbəst yaşayan ibtidailərin və hidrobiontların biomüxtəlifliyi, monitorinqi, onların qida zəncirində rolunun müasir metodlarla tədqiqi və davamlı inkişafı. 2. Azərbaycanda parazit faunanın müasir vəziyyətinin öyrənilməsi, parazitar xəstəliklərin profilaktika və müalicəsinin elmi əsaslarının işlənib hazırlanması. 3.Azərbaycanın quru onurğalılar və onurğasızlarının növ müxtəlifliyi, bioekoloji xüsusiyyətlərinin öyrənilməsi) üzrə tədqiqat işləri aparılması planlaşdırılır.





***Quba rayonunun Xaşı kəndinə kollektiv ekspedisiya zamanı.***

AMEA Zoologiya İnstitutunun perspektiv planında heyvanlar aləminin bioloji müxtəlifliyinin araşdırılması, zəif tədqiq edilmiş heyvan qruplarının öyrənilməsi, bəzi şübhəli cins və növlərin sistematika və taksonomiyasının dəqiqləşdirilməsi, təsərrüfat əhəmiyyətli nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin biologiya və ekologiyasının tam araşdırılması; bioloji və iqtisadi cəhətdən faydalı heyvanların çoxalma texnologiyasının hazırlanması; Azərbaycanın heyvanlar aləminin öyrənilməsində kosmik, informasiya texnologiyaları, riyazi modelləşdirmə, molekulyar-genetik tədqiqat üsullarının zooloji tədqiqatlara tətbiqi, əkiz növlərin genom quruluşunun müəyyənləşdirilməsi; müxtəlif təbii komplekslərdə antropogen təsirin güclənməsi şəraitində heyvanların yayılma, say, ekoloji və davranış xüsusiyyətlərinin tədqiqi; və internet şəbəkəsi üçün elektron məlumat bazasının yaradılması; həll edilməsi qarşıya qoyulan problemlərlə bağlı məsələlərin araşdırılması nəzərdə tutulur.

Hazırda institutda - Protozoologiya şöbəsinin (akademik M.Musayev, 1957-2010; İ.Ələkbərov, 2011-2016) tərkibində Protistologiya (AMEA müxbir üzvü, b.ü.e.d., professor İ.Ələkbərov, 1988) Parazit-sahib münasibətlərinin biokimyəvi əsasları laboratoriyaları (AMEA-nın müxbir üzvü Y.Yolçiyev, 1985-2007; b.ü.e.d. E.Əhmədov, 2008),

Parazitologiya şöbəsinin tərkibində (AMEA-nın müxbir üzvü İ.Sadıqov, 2001; b.e.d. T.Mikayılov, 2008) - Helmintologiya laboratoriyası (akademik S.Əsədov, 1960-1974; AMEA-nın müxbir üzvləri, b.e.d. İ.Sadıqov, 1974-2007 və b.e.d. N.Feyzullayev, 1974-2001; b.ü.f.d. Q.H.Fətəliyev, 2008) və Su heyvanlarının parazitləri laboratoriyası (prof.T.Mikayılov, 1972-2014, b.ü.e.d. A.Manafov, 2014), Entomologiya şöbəsinin tərkibində (AMEA-nın müxbir üzvü N.Səmədov, 1980 - 1988; akademik S.Əliyev, 1988) Cücülərin fauna və sistematikası (AMEA-nın müxbir üzvü, 1960-1986; akademik S.Əliyev, 1987), Faydalı cücülərin introduksiyası və bioloji mübarizənin elmi əsasları (b.ü.f.d. A.Əliyev, 1971-1974; b.e.d. L.Rzayeva, 1974-2006; b.e.d., professor Z.Məmmədov, 2007), Cücülərin ekologiyası və fiziologiyası (professor A.Abdinbəyova, 1971-2000; b.ü.f.d. B.Əhmədov, 2001), və Araxnologiya laboratoriyaları (professor A.Hacıyev, 1968-1992; b.ü.e.d. X.Əliyev, 1993), Su heyvanları şöbəsinin tərkibində (AMEA-nın müxbir üzvü Ə.Qasımov, 1962-2005; professor Ş.İbrahimov 2012) – Hidrobiologiya (akademik A.Derjavin, 1932-1963; AMEA-nın müxbir üzvü Ə.Qasımov, 1963-2005; b.ü.f.d. A.Əliyev, 2005) və İxtiologiya laboratoriyaları (AMEA-nın müxbir üzvü Y.Əbdürrəhmanov, 1962-1977; H.Abbasov, 1978-1983; b.e.d. D.Rəhimov, 1983-2002; b.ü.f.d. A.Orucov, 2002-2004; b.e.d. Z.Quliyev, 2005, professor Ş.İbrahimov 2012-2017), Quru onurğalı heyvanlar şöbəsinin tərkibində (b.e.d. İ.Raxmatulina, 1993 - 2001; prof. N.Əhmədov, 2001-2003; b.ü.e.d. S.Quliyev, 2003-2016) Teriologiya (b.ü.f.d. X.Ələkbərov, 1970-1995; b.ü.e.d. Q.Quliyev, 1995), Ornitologiya (b.ü.f.d. D.Tuayev, 1971 - 1987, b.ü.f.d. E.Sultanov, 1987, b.ü.f.d. İ.Babayev, 2015) və Herpetologiya laboratoriyaları (b.ü.f.d. T.Əliyev, 1982; b.ü.f.d. S.Əhmədov, 2006) fəaliyyət göstərir.

Son illər ölkəmizdə elmlə təhsilin inteqrasiyasını təmin etmək, elmi kadr potensialının inkişafını sürətləndirmək məqsədilə AMEA-nın təhsil sistemində geniş islahatlar aparılaraq 2017-2018-ci tədris illərində AMEA Zoologiya İnstitutunda ilk dəfə olaraq ali təhsilin magistratura pilləsində təhsil almaq üçün 2 yer ayrılması planlaşdırılmışdır.

Hal-hazırda institutda qeyd edilən laboratoriyalardan başqa Mingəçevir elmi-təcrübə laboratoriyası (b.e.n. Ə.Nəbiyev, 1951-1967; b.e.d. H.Abbasov, 1968-1969; b.e.n. P.Məlikova, 1969-1974; b.e.n. Ə.Xəlilov, 1974-1992; b.e.n. İ.Əhmədov, 1992), Zooloji muzey (b.ü.f.d. A.Xanməmmədov, 1971-1986; b.e.n. N.Qəndilov, 1986-1996, b.ü.f.d. İ.Babayev, 1996-2015, S.Bünyatova 2015), Vivarium (H.Cəfərov, 1981-2016), Ağsu dayaq məntəqəsi, Təhsil şöbəsi (b.ü.f.d. L.Şirinova 2016) və 1939-cu ildə təşkil edilən Kitabxana (S.Zeynalova, T.Qəribova, S.Əliyeva, 1973-2014, V.Məmmədova, 2014-2016, Ü.Qarayeva, 2016) fəaliyyət göstərir.

Zooloji biliklərin təbliğində və geniş yayılmasında institutun nəzdində 1971-ci ildə yaradılmış Zooloji muzey böyük rol oynayır. 1985-ci ildə İnstitutun yeni binasına köçmüş Zooloji muzeyin müasir ekspozisiyasının yaradılması işinə ölkənin bir sıra görkəmli mütəxəssisləri cəlb edilmişdir. Zooloji muzeyin zooloji fondu ekspozisiya və kolleksiya fondundan ibarətdir. Hal-hazırda Zooloji muzeyin ekspozisiya fondunda Azərbaycanın və dünyanın heyvanlar aləmindən müqəvva, skelet, təpmə, yaş preparatdan ibarət və kolleksiya şəklində hazırlanmış 1703 eksponat sərgilənir. Onların 314 ədədi son 10 ildə muzeyin ekspozisiya fonduna daxil edilmişdir. Həmçinin eksponatlardan 257-si onurğalı heyvanların müxtəlif siniflərinə aiddir. Zooloji muzeyin kolleksiya fondunda 295 növə aid 5984 quş təpməsi saxlanılır. Muzeyin eksponantları təkcə Azərbaycan faunasını əks etdirmir, burada xarici ölkələrin faunasını əks etdirən nümunələrin (Hindistan fili, şir, zürafə, qnu və s.) müqəvvaları da saxlanılır.

AMEA Zoologiya institutunun laboratoriyaları da zəngin kolleksiya fonduna malikdir. Protistologiya laboratoriyasının kolleksiya fondunda koksidilərin bütün həyat mərhələlərini əhatə edən 1481 histopreparat, Azərbaycanın dəniz və şirin sularından, Orta Asiya, Çukot və Berinq dənizləri, Meksika körfəzi, eləcə də Sakit Okeandan götürülmüş sərbəstyaşayan ibtidailər, gümüşlə impreqnasiya olunmuş 350 preparat, çanaqlı amöblərin 100-ə yaxın preparatı, Entomologiya şöbəsinin kolleksiya fondunda 1932-ci ildən bu günə qədər əməkdaşların vaxtaşırı ekspedisiyaları zamanı toplanmış Azərbaycanın entomofaunasını əhatə edən, müxtəlif dəstələrdən olan bir milyona qədər həşəratdan ibarət zəngin kolleksiya materialı, Helmintologiya laboratoriyasının kolleksiya fondunda gövşəyən heyvanlardan 3 sinfə, 4 yarımsinfə, 8 dəstəyə, 27 fəsiləyə və 75 cinsə daxil olan 232 növ helmint, əhli və vəhşi heyvanlardan 4 sinfə, 9 dəstəyə, 17 yarımdəstəyə, 43 fəsiləyə və 74 cinsə daxil olan 144 növ helmint və quşlardan 4 sinfə, 2 yarımsinfə, 20 dəstəyə, 18 yarımdəstəyə, 59 fəsiləyə və 189 cinsə daxil olan 521 növ helmint preparatı fiksə olunmuş halda, Hidrobiologiya laboratoriyasının kolleksiya fondunda Respublikamızın daxili su hövzələrindən və Xəzər dənizinin Azərbaycan sektorundan toplanmış 2500-ə qədər hidrobioloji (zooplankton, zoobentos, bioloji örtük) materiallar, İxtiologiya laboratoriyasının kolleksiya fondunda respublikamızın daxili su hövzələrindən və Xəzər dənizinin Azərbaycan sektorundan toplanmış 600-dən çox ixtioloji materiallar, Herpetologiya laboratoriyasının kolleksiya fondunda laboratoriyanın fəaliyyətə başladığı ilk dövrlərdən hal-hazıradək

Azərbaycanın müxtəlif bölgələrindən amfibilər və reptililər faunasına aid toplanmış 2 dəstə, 6 fəsilə, 9 cins və 11 növə aid olan 500-dən artıq amfibi nümunələri, Sürünənlər sinfindən Azərbaycanda yayılan 3 dəstə, 12 fəsiləyə, 35 cinsə, 56 növə aid olan 1000-ə qədər fərdin kolleksiya materialı, Teriologiya laboratoriyasının kolleksiya fondunda İnsectivora dəstəsindən 16 növ üzrə 849, Chiroptera dəstəsindən 23 növ üzrə 1237, Dovşankimilər dəstəsindən 2 növ üzrə 34, Gəmiricilər dəstəsindən 53 növdən 4338, Yırtıcılar dəstəsindən 21 növdən 333, Dırnaqlılar dəstəsindən 12 növdən 23 fərdin, ümumilikdə 6814 heyvan nümunələri saxlanılır.

Zoologiya institutu Respublikamızın müxtəlif elmi-tədqiqat müəssisələri və ali məktəbləri ilə birgə kompleks tədqiqatlar aparır. AMEA Zoologiya İnstitutunun əməkdaşları Rusiya EA Zoologiya, A.N. Severtsov adına Heyvanların Ekologiyası, Morfologiyası, Mikrotəkamülü İnstitutlarının, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, Ümum Rusiya Təbiəti Mühafizə Elmi Tədqiqat İnstitutunun, Sankt-Peterburq Dövlət Universitetinin, Soçi Milli Parkının, Türkiyə Respublikası Ondokuz Mayıs Universitetinin Zootexnologiya kafedrasının və Koçman Universitetinin Baytarlıq fakultəsinin, ABŞ Dəniz Tədqiqatları İnstitutu və Perduye Universitetinin, Meşə və Təbii Resurslar Departamentinin, Eri Gölü Tədqiqat Mərkəzinin, İran İslam Respublikası Razi Universitetinin, Çexiya Respublikasının Elmlər Akademi-yasının Parazitologiya İnstitutunun, Sevastopol Cənub Dənizləri Biologiyası İnstitutunun, Ukrayna Milli EA Hidrobiologiya və Zoologiya İnstitutlarının, Belorusiya EA Zoologiya İnstitutunun mütəxəssisləri ilə elmi əlaqələr saxlayır. Beynəlxalq qrantlar layihələrinin yerinə yetirilməsində birgə müştərək tədqiqatlar aparırlar.

## ƏDƏBİYYAT

**Ələkbərov İ.X., Məmmədov Z.M.** (2011) Azərbaycan Respublikasının müstəqilliyi dövründə AMEA Zoologiya institutu əməkdaşlarının apardıqları elmi tədqiqatların nəticələri. *AMEA Zoologiya institutunun əsərləri*, **29:** 10-19.

**Musayev M.Ə., Qasımov Ə.H., Ələkbərov X.M. Mikayılov T.K. və b**. (1987) Azərbaycan SSR Elmlər Akademiyasının Zoologiya institutu - 50 il. Elm: 230 s.

**Musayev M.Ə**. (1997) Azərbaycanda heyvanlar aləminin öyrənilməsi və qorunmasının nəticələri və perspektivləri. Heyvanlar aləminin öyrənilməsi və qorunması. *Akademik M.Ə.Musayevin anadan aolmasının 75 illiyinə həsr olunmuş elmi konfransın materialları*. Bakı. Elm.: 11-21.

**Musayev M.Ə.** (2006) AMEA Zoologiya İnstitutunun 70 ildə keçdiyi yol. *Zoologiya institutunun əsərləri*, **28:** 12-21.

**Волобуев В.Р., Караев А.И.** (1967) История развития и основные итоги исследований в области биологических наук за 50 лет в Азербайджане. В кн.: *Развитие науки в Советском Азербайджане*. Баку: 176-217.

# AMEA ZOOLOGİYA İNSTİTUTUNUN 80 İLLİK YUBİLEYİ

Azərbaycan Milli Elmlər Akademiyası Zoologiya İnstitutunun 80 illik yubileyinə həsr olunan "Qafqaz ekosistemi: dünən, bu gün, sabah (Qafqazın 80 illik zooloji tədqiqatları)" mövzusunda iki günlük (23-24 noyabr 2016-cı il) beynəlxalq elmi konfrans keçirilmişdir. Beynəlxalq konfransda respublikanın və xarici ölkələrin müxtəlif unversitet və elmi tədqiqat institutlarından ümumilikdə 500 nəfərdən artıq alim və mütəxəssis iştirak etmişdir.



*AMEA-nın prezidenti akademik Akif Əlizadə.*

Konfransda Azərbaycanın ilk elmi-tədqiqat institutlarından olan və ölkəmizdə zoologiya elminin inkişafında müstəsna xidmətlər göstərən Zoologiya İnstitutunun keçdiyi şərəfli inkişaf yolundan danışan AMEA-nın prezidenti, akademik Akif Əlizadə 1936-cı ildən fəaliyyət göstərən bu institutun ötən müddət ərzində Azərbaycan elminə layiqli töhfələr verdiyini qeyd etdi. Zoologiya İnstitutu hazırda dövlət siyasətinin mühüm prio-ritetlərindən biri olan elmin inkişafında yaxından iştirak edir, milli zoologiya elminin dünya elminə inteqradiyası üçün müasir dövrün tələbləri səviyyəsində strukturun yaradılmasına çalışır.

Zoologiya İnstitutunun elmi nailiyyətlərindən ətraflı danışan akademik A.Əlizadə Azərbaycanda zooloq alimlərin artıq zamanın tələblərinə uyğun dəyişməli oluğunu, klassik zooloji tədqiqatlardan, molekulyar səviyyədə aparılan tədqiqatlara keçilməsinin vacibliyini, hazırda dünyada multidisiplinar istiqamətlərdə elmi tədqiqatların aparıldığını vurğulayaraq göstərdi ki, ancaq heyvanlar üzərində gen səviyyəsində tədqiqatlar aparmaqla zoologiya elminin gələcək inkişafına nail olmaq mümkündür. AMEA prezidenti xarici ölkələrin nüfuzlu alimlərinin tədbirdə iştirakını yüksək qiymətləndirdi.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov Zoologiya İnstitutunun milli zoologiya elminin inkişafında rolundan, burada çalışan əməkdaşların Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiyanı əsas tutaraq biomüxtəlifliyin qorunması, kənd təsərrüfatı bitkilərinin bioloji mühafizəsinin elmi-praktik əsaslarının hazırlanması, zərərvericilərin sayının bioloji üsullarla tənzimlənməsi məqsədilə multidisiplinar tədqiqatların aparılmasında qarşıya qoyulan məqsəddən danışdı.



*Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov.*



*AMEA Zoologiya institutunun direktoru, f.ü.f.d.,dos. E.Yusifov*

Konfransın açılış iclasında çıxış edən Zoologiya İnstitutunun direktoru f.ü.f.d., dosent Elman Yusifov hazırda institut əməkdaşlarının Azərbaycanın su hövzələrinin biomüxtəlifliyinin öyrənilməsi, bioloji ehtiyatların davamlı inkişafının təmin olunması və bioloji resursların bərpası, Xəzər akvakultura təsərrüfatlarının təşkili, daxili su hövzələrində balıqçılıq təsərrüfatlarının yaradılması, kənd təsərrüfatı heyvanlarının xəstəliklərinə qarşı aparılan mübarizə tədbirlərinin hazırlanması istiqamətində elmi-tədqiqat işlərinin aparıldığını qeyd etdi.

Beynəlxalq elmi konfransın plenar iclasında Ekologiya və Təbii Sərvətlər nazirinin müavini F.Əliyev, Türkiyənin Fırat Universitetinin Akvakultura və Balıq Xəstəlikləri Departamentinin müdiri, professor Naim Sağlam, AMEA Naxçıvan bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik T.Talıbov, London Kral Cəmiyyətinin üzvü, professor Rosi Skaravatti, Şmalhauzen adına Ukrayna Zoologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya üzrə elmlər doktoru, professor Vitali Xarçenko, Bakı Dövlət Universitetinin Onurğalılar Zoologiyası kafedrasının müdiri, biologiya elmlər doktoru, professor Q.Mustafayev çıxış edərək Zoologiya institunun elmi fəaliyyətindən, institutun zooloq alimlərinin xidmətlərinidən danışaraq, institutun kollektivini yubiley münasibətilə təbrik etdilər.



*Fırat Universitetinin Akvakultura və Balıq Xəstəlikləri Departamentinin müdiri, professor  Naim Sağlam.*



*London Kral Cəmiyyətinin üzvü, professor Rosi Skaravatti.*



*Ukrayna Zoologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Vitali Xarçenko.*

Konfrans birinci iş gününə Prtozoologiya, Parazitologiya və İxtiologiya seksiyasında müzairələrə protozoologiya, parazitologiya və ixtiologiyanın ümumi problemlərinin həlli istiqamətində aparılan tədqiqat işlərinin nəticələrinin dinlənilməsi ilə başladı.





Seksiyanın iclasında Fırat Universiteti, Akvakultura və Balıq xəstəlikləri Departamentinin müdiri Prof.Dr Naim Sağlam (Türkiyə) “The economic importance and status of medical leeches in Turkey”, Şimalhauzen adına Zoologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, professor V.A.Xarçenko (Ukrayna) “Паразитологический

статус польских примитивных коников (*Equus caballus gmelini* Ant.): Влияние возраста, пола и стратегии содержания на сообщество паразитов", Vinnitsa Milli Aqrar Universitetinin professoru V.P.Kuçer-yavıy (Ukrayna) "Особенности технологии выращивания товарной рыбы в хозяйствах Украины", Vinnitsa Milli Aqrar Universitetindən Y.Q.Traçuk "Активизация разложения фитомассы высших водных растений в рыбоводных прудах и интенсификация развития кормовой базы", İllia Universitetindən (Gürcüstan) B.Capoşvili "Ichthyofauna of Paravani and Saghamo lakes: an updates appraisal", AMEA Zoologiya institutundan b.ü.e.d. S.İbrahimov "A brief overview of the scientific researches of fish in Azerbaijan", AMEA-nın müxbir üzvü, b.ü.e.d. İ.Ələkbərov "Успехи в изучении видового разнообразия простейших в Азербайджане", b.ü.e.d. N.Sneqovaya "Успехи арахнологи-ческих и энтомологических исследований в Азербайджане" mövzusunda məruzələrlə çıxış etdilər.

Konfransın növbəti günü (24 noyabr 2016-cı il) Entomologiya və Araxnologiya, Teriologiya, Ornitologiya və Herpetologiya seksiyaları üzrə elmi dinləmələr AMEA Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında davam etdirildi.









***Konfransın bağlanış mərasimi***

Gürcüstan Aqrar Universitetinin Entomologiya İnstitutunun doktorantı G.Kirkitadze "Pollination features on the local apple variety in Georgia", Rusiya Şimalın Bioloji Problemləri İnstitutu, aparıcı elmi işçi, b.e.d. Y.M.Marusik (Rusiya) "Зоогеография Голарктики и Кавказа, о чем свидетель-ствует распространение пауков?", Süleyman Dəmirəl Universiteti, Meşəçilik fakültəsi Yasin Ünal (Türkiyə) "Wild goat population inventory in Turkey, Ispartaregion example (2008-2013)", Süleyman Dəmirəl Universiteti, Meşəçilik fakültəsi (Türkiyə) Mevlüt Zenbilci "Caucasian originated mammals distributedin Turkey", AMEA Zoologiya institutundan E.Əsgərov "The current status of Mammals in Azerbaijan", b.ü.f.d. T.İsgəndərov "Биоразнообразие герпетофауны Азербайджана и проблемы ее охраны", Bakı Dövlət Universitetinin Onurğalılar zoologiyası kafedrasının dosenti S.Hümbətova "Avifauna of Azerbaijan: the past, the present and the future" mövzusunda məruzələrlə çıxış etdilər.

***AMEA Zoologiya institutunun***
***direktoru, f.ü.f.d., dos. E.F.Yusifov***

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild. 71, № 3, səh. 79-82 (2016)

# Basic Principles of Breeding of Medicinal Leech, *Hirudo verbana*

**Naim Saglam**

*Department of Aquaculture and Fish Diseases, Faculty of Fisheries, Firat University, 23119, Elazig, Turkey; e-mail: nsaglam@firat.edu.tr and naim.saglam@gmail.com*

**Leeches are known as both therapeutic invertebrate live and parasites for people since ancient times. In this study, the basic principles of leech breeding were prepared by evaluating of the data obtained from studies carried out at Firat University, Faculty of Fisheries. Two soil pools that have total surface area 1500 m$^2$, and five pieces 600 l recirculating tanks for the culture of leeches were used. The criteria were prepared to produce one million pieces of leeches with the knowledge accumulated on the breeding of medicinal leeches over many years. For the culture of *Hirudo verbana*, 6250 m$^2$ in the fully-controlled indoor system and 8500 m$^2$ in the semi-controlled outdoor system are required. It is sufficient 12-15 pieces of rootstock leeches per square meter. Water temperature, oxygen and pH in cultivation tanks should be set to 20-25ºC, 3 mg/L and 7,6-8,5, respectively.**

***Keywords:*** *Medicinal leech, Hirudo verbana, Breeding, Leech culture*

## INTRODUCTION

Five million medicinal leeches were used by medical experts for treatment per year in Paris hospital of France in the 19th century. For a variety of reasons, this practice lost its popularity so that, in the 20th century, it became part of the folklore of traditional `last century' medicine. However, because of their important salivary components, blood-sucking leeches such as *H. medicinalis* and other medicinal leech species have become of great interest for pharmaceutical companies seeking to expand their supply of various anticoagulants to prevent blood clotting in microsurgeries (Bednarek et al., 2010; Eldor et al., 1996; Electricwala et al., 1991; Godekmerdan et al., 2011; Kostromina et al., 2012; Kutschera and Wirtz, 2001; Lent, 1986; Markwardt, 1991; Markwardt, 1992; Munro et al., 1992; Weinfeld et al., 2000).

Aquaculture experiments were conducted on the Asian medical leech *Hirudinaria manillensis*. In these studies, the effects of bloodstocks density on cocoon productivity and reproduction biology of leech were investigated (Zhang et al., 2008; Zulhisyam et al., 2011). Some papers has been prepared on the reproduction and breeding, husbandry requirements, and feeding of medicinal leeches (Sağlam, 2000; Spencer and Jones, 2007).

The threat of extinction many populations of the medicinal leech (*Hirudo medicinalis* and *Hiruda verbana*) (IUCN, 1993), and because the extensive international trade in this species has been identified as a major threat to natural populations, they were added to Appendix II of the "*Convention on International Trade in Endangered Species of Wild Fauna and Flor*a (CITES)" in 1987. Molecular identification of *Hirudo* and another leech species is important to reduce pressure of hunting and to trade within CITES rules. Therefore, the international CITES Secretariat wants to be constantly monitored of the populations status of medicinal leech species (CITES, 2006; Sağlam, 2011).

Turkey is a major source country for international trade of medicinal leeches and a very rich country in terms of leech diversity. But, recently the medicinal leeches have not been collected enough from nature due to the surface water pollution, extreme use of leeches, and the drying of wetlands. In addition, under the legislation of the FDA and the Turkish Ministry of Health, leeches should be taken from leech farms for use of human in the context of alternative and complementary medicine regulations. In this respect, medical leech breeding has gained great importance.

## MATERIALS AND METHODS

In this study, the basic criteria of medicinal leech breeding were determined according to data obtained from controlled indoor breeding system and semi-controlled outdoor system breeding systems in Firat University, Faculty of Fisheries for many years. These results were obtained by combining the results with incorporating of the results of the leech breeding attempts of various countries and own production unit. Broodstock medicinal leeches were provided collecting from natural area. Two soil pools that have total surface area 1500 m$^2$ in Fisheries Research Center, Faculty of Fisheries, Firat University, and five fiberglass recirculating tanks of size 80x75x90 cm in 540 L capacity in Aquaculture laboratory for the culture

of leeches were prepared. Each tank was filled with 250 L of dechlorinated freshwater until approximately half level and was placed special soft spawning soil for cocoon release of leeches. The water in the tank was aerated, and changed once every 2 days. In leech farming systems were performed water analysis as continuous, and checked hatching situation of leech every day and wrote records of results.

## RESULTS

### 1. Preparation of Leech Breeding Pools

The average 130 (between 120-160) leeches can be put into place of one square meters according to size. 180.000 leeches in 1000 $m^2$ place can be grown. The sufficient pond surface area is 6250-8500 $m^2$ for 1000 kg leech production. The size of the pools is determined by the terrain conditions. The floor of pools should be waterproof and should be put minimum 25 cm thickness special soil for spawning. The semi-controlled one farm for production of 1000000 leech should be totally 10000 square meters with pools (8500 $m^2$), walking roads, parking and administrative building (200 $m^2$) (Table 1).

### 2. Rootstock Needs of Medicinal Leech Farms

A medicinal leech can produce about 22 offspring leech per year. The number of offspring leech decreases to 12-14 in intensive stocking. For annual one-ton production were need to produce one million offspring leech. 1350000 offspring should produce because of 35% death rate of baby leeches. 1350000 pieces offspring leech can be obtained by 61364 rootstocks. 67500 rootstock leeches are needed to compensate the 10% death rate. The average weight of a rootstock medicinal leech is 2 g (1-3 g). Therefore, totally 135 kg of rootstock medicinal leech should be stocked.

### 3. Reproduction of Medicinal Leeches

Medicinal leeches lay their cocoons in average 9 (6-12) months. Baby leeches hatch in 30 days. There are approximately 6 months between the first and second spawning. One medicinal leech produces average 12 (1-41) cocoon during the life. One medicinal leech produces average 45 (13-97) baby leech during the life. One cocoon produces average 4 (0-14) baby leech. The lifetime of one leech is average 3 years (1.5-5 years) The death ratio baby leeches is 35% until the adult stage from egg.

### 4. Feeding of medicinal leeches

A leech is fed monthly with average 140 mg (between 70-190 mg) blood. One million leeches can consume monthly average 140 kg blood. One million leeches consume an annual average 1680 kg (840-2280 kg) blood. Annual average consumption of blood in the medicinal leech farm is totally 1883 kg when rootstocks leech is added.

